Xalqın qəzeti!

# Xalq qəzeti

№ 114 (30518) 1 iyun 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti xalqqazeti.az

## Ermənistanda qarşıdurma səngimir

**Ermənistanda radikal müxalifətin baş nazir Nikol Paşinyana qarşı etirazları davam edir. Revanşistlər erməni apostol kilsəsinin Tavuş vilayəti üzrə yeparxiyasının arxiyepiskopu Baqrat Qalstanyanın çağırışı əsasında mayın 31-də yenidən İrəvan küçələrinə çıxıblar.**



Qeyd edək ki, B.Qalstanyan hər gün axşamçağı İrəvandakı Müqəddəs Anna kilsəsinin həyətində gün ərzində həyata keçirdikləri tədbirlər barədə tərəfdarlarına və mətbuat nümayəndələrinə məlumat verir, həmçinin ertəsi günün planlarını açıqlayır. Mayın 30-da keçirilən belə ənənəvi görüşdə "Srbazan" bildirmişdi ki, qondarma "Vətən naminə Tavuş" hərəkatı mayın 31-də Ermənistan xarici işlər nazirliyinin binasına doğru yürüş edəcək. Buna səbəb kimi isə nazirliyin Bakı və Ankaradan İrəvanın ünvanına yönələn ittihamlara (?) cavab verməməsini göstərib.

Dünən səhər saatlarında XİN-in binasına gələn etirazçıların rəhbəri Qalstanyan nazir Ararat Mirzoyanı aşağı düşməyə və Azərbaycan və Türkiyədən Ermənistanla bağlı verilən son bəyanatlara cavab verməyə çağırıb. Nazirlik binası yaxınlığında keçirilən mitinqdə Qalstanyan Mirzoyandan etirazçıların yanına gəlməsini tələb edib, əks-təqdirdə, özlərinin birbaşa nazirin otağına getməyə hazır olduqlarını bildirib.

(ardı 4-cü səhifədə)

# Azərbaycan "yaşıl" iqtisadiyyatı çiçəkləndirir

**Bu ilin noyabr ayında respublikamız dünyada iqlim siyasətinin mərkəzinə çevriləcək, Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) reallaşacaq. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına əsasən, bundan əvvəl, noyabrın 12-13-də isə paytaxtımızda İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti gerçəkləşəcək və bu sammitlə COP29-a start veriləcək.**




Ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayevin sözlərinə görə, sessiyanın proqramı təkcə maliyyə məsələləri ilə məhdudlaşmayacaq. Burada su problemləri, torpaqların deqradasiyası, "yaşıl" kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, sağlamlıq və s. kimi bir çox digər vacib məsələlər ətrafında da müzakirələr aparılacaq.

M.Babayev qeyd edib ki, maliyyə COP üçün əsas mövzudur: "Bu, o qədər də asan deyil, sövdələşmə çətindir, xüsusən də inkişaf etməkdə olan ölkələrin bu maliyyəyə olan gözləntiləri çox yüksək olduqda uyğun yol tapmaq lazımdır. Biz tərəflərin mövqeyini bir-birinə daha da yaxınlaşdırmaq üçün əlimizdən gələni etməliyik və düşünürəm ki, tərəflərdən bəzi müsbət siqnallar var. Bütün ölkələr indi öz səylərini birləşdirməyin, bir-birini başa düşməyin nə qədər vacib olduğunu anlayırlar. 2024-cü ildə Bakıda yaxşı nəticələr tapmaq üçün bu, vacibdir".

(ardı 8-ci səhifədə)

## Ölkəmiz mina təcrübəsini dünya ilə paylaşır



**Bakıda keçirilən "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusuna həsr edilmiş III Beynəlxalq Minatəmizləmə Konfransı başa çatıb.**

Konfransın ikinci günündə çıxış edən Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Azərbaycanın Ermənistanla sülh razılaşmasına yaxın olduğunu qeyd edərək deyib: "Ən əsas odur ki, Azərbaycanın suverenliyi tam bərpa olunub. Ermənistanla delimitasiya işlərində irəliləyişlər var. Lakin məcburi köçkünlərin öz yurdlarına qaytarılması, yenidənqurma işləri mina səbəbindən ləngiyir. Azərbaycan minalarla çirklənməyə görə dünyada ilk beşlikdədir. 2020-ci ildə 44 günlük müharibə bitdikdən sonra Azərbaycanın 361 vətəndaşı mina qurbanı olub. Təəssüf ki, bu rəqəm hər həftə artır.

(ardı 2-ci səhifədə)

## Dünya Bankı və Azərbaycanın milli prioritetləri

Səhifə ⇨ 7

## Qarabağ yenidən cənnətə çevrilir

Səhifə ⇨ 7

# Zatulinin "kilsə fantaziyası"

## Rusiyanın "baş ermənipərəsti" yenə sərsəmlədi

**Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini, ermənipərəst mövqeyi ilə tanınan Konstantin Zatulin "xoddanıb". Heç şübhəsiz, onu ötən ay olduğu kimi, yenə də Azərbaycana qarşı "hərəkətə gətiriblər". Kim hərəkətə gətirib? Əlbəttə ki, Rusiyadakı erməni dostları. Yəni, erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri.**

Əvvəlcədən bildirək ki, K.Zatulin bu ilin aprelində iki dəfə gündəmdə olmuşdu. Hər iki halda "Gazeta.ru"ya danışmışdı. Birinci açıqlamasında bildirmişdi ki, rus hərbçilərinin Qarabağda qalmalarına heç bir lüzum yoxdur, çünki bölgədə erməni qalmayıb. Ermənipərəst parlamentarinin ikinci açıqlaması isə Rusiya sülhməramlılarının Qarabağı tərk etməyə başlamasından sonra olmuşdu. O, arsız-arsız rus hərbçilərinin bölgədə qalmalarının vacibliyindən dəm vurmuşdu.

Bəli, Zatulinin qaldırdığı iddianın motivləri rəsmi İrəvanın və xaricdəki havadarlarının gündəmindəki tezislərdən fərqlənməmişdi. Məsələn, deputat bildirmişdi ki, guya, Rusiya sülhməramlılarının Qarabağda olmaları bölgə ermənilərinin evlərinin dağıdılmaması üçündür. Ən əsası isə sən demə, ruslar oradakı erməni mədəni irsinin məhvinin qarşısını alırlarmış: "Mən sülhməramlılarımızın, məsələn, erməni əhalisi tərəfindən tərk edilmiş evlərə, tarix və mədəniyyət abidələrinə heç nəyin baş verməməsini təmin etmək üçün yerləşdirməyi məqsədəuyğun görürəm".

Bəli, Zatulin yenə köhnə "ampluasındadır" və o, ötən ay səsləndirdiyi saxta tezisi bir daha gündəmə gətirib. Sən demə, Qarabağda monastırların adları dəyişdirilir, erməni kilsəsinin keçmişi silinir. Ermənipərəst deputat bununla bağlı fikirlərini Beynəlxalq Rusiya–Ermənistan "Lazarev klubu"nun altıncı iclasında çıxış edərkən dilə gətirib. Daha doğrusu, bu, fikir bildirmək yox, sarsaqlamaqdır. Onun çıxışındakı digər məqamlar da həmçinin: "Belə bir nəzəriyyə irəli sürülüb ki, bunlar erməni deyil, alban monastırlarıdır. Doğrudan da, vaxtilə erməni kilsəsinin tərkibində alban kilsəsi olub. On minə yaxın udin var – bu gün onları ermənilərin olmayan kilsənin qanuni varisləri kimi təqdim etməyə çalışırlar".



(ardı 3-cü səhifədə)

# "Təlimatçılıq" məntiqi və Ermənistan üçün illüziya

## ABŞ-dən "kömək istəyənlər" hansı ölkələrdir?



**Məşhur "Intelligence Online" saytı ABŞ-nin bir sıra ölkələrin müdafiə nazirliklərinin istəyi ilə həmin ölkələrə hərbi məsləhətçilər göndərməsi barədə məlumat yayıb. Görəsən, söhbət hansı ölkələrdən gedir? Oxucuları çox da intizarda saxlamayaraq, onların adlarını çəkək: Ukrayna, Moldova, konkretliyi müəyyənləşməmiş Balkan yarımadası ölkələri və nəhayət, Ermənistan.**

Əslində, Ermənistanın adını siyahıda görmək bir o qədər təəccüblü deyil. Birləşmiş Ştatlar Administrasiyasının rəsmi İrəvanla hərbi sahədə əməkdaşlıq etdiyi aydındır. Hələ ötən il məlumat yayılmışdı ki, Ermənistan ordusunda ABŞ-nin hərbi təlimatçıları fəaliyyət göstərirlər. Bunun Rusiya tərəfindən qıcıqla qarşılandığını da gördük.

(ardı 5-ci səhifədə)

## Əziz Səncər: Azərbaycanın mənim könlümdə ayrı bir yeri var



Səhifə ⇨ 11

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə yunan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır, Azərbaycan xalqına firavanlıq və tərəqqi arzulayıram.

BMT Nizamnaməsinin prinsiplərinin müdafiəsinə və beynəlxalq hüquqa hörmətə əsaslanaraq ölkələrimiz arasında qarşılıqlı fayda naminə əməkdaşlığın və dialoqun genişlənəcəyinə ümid edirəm.

Zati-aliləri, ölkənizin milli bayramı münasibətilə ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Katerina SAKELLAROPULU,**
**Yunanıstan Respublikasının Prezidenti**

*

**Əssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu!**

Hörmətli cənab Prezident.

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Biz dövlətlərimiz arasındakı dostluq münasibətlərini yüksək qiymətləndirir və bu münasibətləri həm ikitərəfli əsasda, həm də beynəlxalq forumlarda daha da inkişaf etdirmək imkanlarını alqışlayırıq.

Mən, həmçinin Sizə və hökumətinizə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi etməklə bağlı bütün hazırlıqlarınızda uğurlar arzulayıram.

Allah-Taaladan Zati-alinizə möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına isə sülh və rifah diləyirəm.

Vəssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

**Hacı Həssənal BOLKİAH,**
**Bruneyin Sultanı**

**Zati-aliləri!**

Əlamətdar bayram – ölkənizin Müstəqillik Günü münasibətilə Şri-Lanka hökuməti adından və şəxsən öz adımdan Zati-alinizi, Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm.

Şri-Lanka ilə Azərbaycan arasında xoş məramə və qarşılıqlı anlaşmaya əsaslanan sıx və mehriban münasibətlər mövcuddur. Əminəm ki, bu əlaqələr xalqlarımızın qarşılıqlı rifahı naminə növbəti illərdə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə cansağlığı, xoşbəxtlik, firavanlıq, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

**Hörmətlə,**

***Ranil VİKRAMASİNQHE,***
***Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti***

*

**Möhtərəm cənab Prezident!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan Respublikasının hökumətinə və xalqına tərəqqi və firavanlıq diləyirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın Əmiri***

*

**Möhtərəm cənab Prezident!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Zati-alinizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Şeyx Mansur bin Zayed Al NƏHYAN,**
**Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident işləri naziri**

# Ş.B.Alxasovun Qusar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Şair Balaşərif oğlu Alxasov Qusar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 31 may 2024-cü il**

# Daxili İşlər naziri Yardımlıda



**Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 30-da və 31-də Yardımlı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Yardımlı, Astara, Lerik, Masallı, Lənkəran şəhər və rayonlarından qəbula gələn 264 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

21 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 92 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**XQ**

**III Beynəlxalq Minatəmizləmə Konfransı**

# Ölkəmiz mina təcrübəsini dünya ilə paylaşır



**(əvvəli 1-ci səhifədə)**

Düzgün xəritələrin verilməməsi problemi daha da dərinləşdirir. Mina fəaliyyəti insanlar üçün təhlükəsiz şəraitin yaradılmasına hədəflənib. Həmin fəaliyyət yenidənqurma işlərinin, sosial siyasətin əsasını təşkil edir. Bu prosesə illər lazımdır. Lakin Azərbaycanın bu istiqamətdə işləyən qurumu – ANAMA məhsuldar fəaliyyət göstərir. Xarımlardan ibarət minatəmizləyənlər də var. Lakin bu istiqamətdə ölkəmizə beynəlxalq dəstək azdır. İnanırıq ki, beynəlxalq ictimaiyyət bu yükün bölüşdürülməsinə kömək edəcək".

BMT-nin Sülh Əməliyyatları Departamentində Qanunun aliliyi və təhlükəsizlik institutları üzrə baş katibin köməkçisi Aleksandr Zuyev konfrans iştirakçılarına videomürəciətində Azərbaycan hökumətinə ətraf mühiti mühafizə sahəsində həyata keçirdiyi tədbirlərə, xüsusilə mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətləri 18-ci Dayanıqlı İnkişaf Məqsədi (DİM) kimi təqdim etdiyinə görə təşəkkür edib: "Azərbaycanın COP29-a evsahibliyi etməsi onu göstərir ki, ölkə ətraf mühitin mühafizəsini ali məqsəd kimi görür. Azərbaycanın minatəmizləmə fəaliyyətini – xüsusilə ANAMA-nın gördüyü işləri yüksək qiymətləndirirəm. Bu yaxınlarda beynəlxalq mina fəaliyyətləri standartlarının yenilənməsi dərc olunacaq. Ümumilikdə, mina problemi ilə ətraf mühit arasında əlaqəni qabartmaq vacibdir".

Açılış nitqlərindən sonra konfrans panel sessiyalarla davam edib.

"Ətraf mühitin davamlı reabilitasiyası üçün milli bacarıqların yaradılması", "Təhlükəsiz və yaşıl gələcək üçün resurs səfərbərliyi və mina fəaliyyəti vasitəsilə inklüziv transformasiya" və "Yaşıl davamlı inkişaf üçün siyasət inteqrasiyası və təbliğat" mövzularında keçirilən panel sessiyalarda minaların ətraf mühitə vurduğu ziyandan, insanların həyatı üçün yaratdığı təhlükələrdən, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma işlərinin sürətləndirilməsi və sakinlərin qayıdışı üçün beynəlxalq humanitar minatəmizləmə fəaliyyətinin aparılmasının vacibliyindən söhbət açılıb, ANAMA-nın mina təmizləmə fəaliyyəti yüksək qiymətləndirilib.

Sonra konfransın yekununa dair Bəyannamə qəbul edilib. Bəyannaməni BMT İnkişaf Proqramının Qlobal mina təmizləmə fəaliyyəti və inkişaf üzrə müşaviri Ştayner Essen oxuyub.

Sonda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsi müdirinin müavini Nüsrət Süleymanov Azərbaycanın minatəmizləmə sahəsində böyük təcrübə əldə etdiyini diqqətə çatdıraraq deyib: "Biz bu təcrübəni eyni problemdən əziyyət çəkən digər ölkələrlə bölüşməyə hazırıq. Həmin təcrübəni əldə etmək bizə baha başa gəldi".

Minalar və partlamamış hərbi sursatların milliyyətindən asılı olmayaraq insanların həyatlarına son qoyduğunu qeyd edən N.Süleymanov, onların su və torpaq resurslarına ciddi təhdid olduğunu da vurğulayıb. "Dünyada konfliktlərin artdığı vaxtda biz birlikdə müharibələrin fəsadlarına qarşı mübarizə aparmalıyıq. Həmin fəsadlardan ən mənfuru minalardır.

Məlumdur ki, bu il Azərbaycanda COP29 konfransı keçiriləcək. Biz bu konfransda iqlim dəyişikliyi məsələsi ilə yanaşı, mina problemini də qaldırmağı özümüzə borc bilirik. İqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək üçün mina problemini həll etməliyik", - deyə N.Süleymanov fikirlərinə yekun vurub.

Bununla da konfrans işini başa çatdırıb.

Xatırladaq ki, konfransın ilk günü Zəngilanda, ikinci günü isə Bakıda keçirilib.

*

**"Minaların ətraf mühitə təsirinin azaldılması – Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda Zəngilanda və Bakıda keçirilən 3-cü beynəlxalq konfransın yekununda Bəyannamə qəbul olunub. Bəyannamədə bildirilir:**

"Biz, 2024-cü il 30-31 may tarixlərində Azərbaycanın Zəngilan rayonunda və Bakı şəhərində keçirilən Minatəmizləmə üzrə 3-cü Beynəlxalq Konfransın iştirakçıları bir araya gələrək təhlükəsiz və yaşıl gələcək üçün minaların ətraf mühitə təsirinin azaldılması və resursların səfərbər edilməsi məsələlərini müzakirə etdik. Bu xüsusda,

Biz – Mülki şəxslərin, o cümlədən uşaqların, qadınların və digər qeyri-döyüşçü əhalinin həyatına son qoymağa, şikəst etməyə və yaralamağa davam edən minaların və müharibənin partlayıcı qalıqlarının dağıdıcı və fərq qoymadan təsirləri ilə bağlı dərin narahatlıq ***ifadə edərək;***

Minalarla çirklənmənin ətraf mühitə əhəmiyyətli dərəcədə mənfi təsir göstərdiyini, bununla da müvafiq tədbirlər vasitəsilə minalarla çirklənmənin mümkün mənfi təsirlərinin qarşısının alınmasının və yumşaldılmasının zəruri olduğunu ***qəbul edərək;***

İqlim dəyişmələrinin partlayıcı hərbi sursatla bağlı təhlükələrin azaldılması səylərinə mənfi təsir göstərdiyini ***nəzərə alaraq;***

"Piyada əleyhinə minaların istifadəsi, yığılması, istehsalı və ötürülməsinin qadağan edilməsi və onların məhv edilməsi haqqında Konvensiya" ("Ottava Konvensiyası") və "Kasetli sursatlar haqqında Konvensiya" ("Oslo Konvensiyası") da daxil olmaqla, minaların və PHS-nin istifadəsini tənzimləyən və ya qadağan edən mövcud beynəlxalq hüquqi sənədlərin prinsip və dəyərlərini qəbul edərək, eyni zamanda, hamını bu sənədlərə rəsmi riayət olunması istiqamətində addımlar atmağa ***təşviq edərək;***

BMT Təhlükəsizlik Şurasının 2017-ci il 30 iyun tarixli 2365 (2017) saylı qətnaməsini və onun minatəmizləmə fəaliyyəti ilə bağlı bütün əvvəlki qətnamələrini ***xatırladaraq;***

BMT Baş Assambleyasının 2023-cü il 7 dekabr tarixli 78/70 saylı qətnaməsini və onun minatəmizləmə fəaliyyətinə dəstəklə bağlı bütün əvvəlki qətnamələrini ***xatırladaraq;***

Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması üzrə 1954-cü il Haaqa Konvensiyasına tərəf ölkələrin on beşinci iclasında (2023) qəbul edilmiş "Minaların mədəni irsə təsiri" adlı UNESCO-nun qətnaməsini ***alqışlayaraq;***

BMT-nin Baş katibinin 2023-cü il iyulun 31-də dərc edilmiş, minalarla çirklənmə və iqlim dəyişmələri arasında dərinləşən qarşılıqlı əlaqənin qeyd olunduğu A/78/259 saylı "Minatəmizləmə fəaliyyətinə dəstək" adlı hesabatını ***nəzərə alaraq;***

Birləşmiş Millətlər Təşkilatının Minatəmizləmə fəaliyyəti ilə bağlı Strategiyasını və Birləşmiş Millətlər Təşkilatının Minalardan təmizləmə zamanı Qurbanlara Yardım Siyasətini ***nəzərə alaraq;***

"Minatəmizləmə fəaliyyətində ətraf mühitin idarə edilməsi" Beynəlxalq Mina Təmizləmə Standartını IMAS 07.13 ***nəzərə alaraq;***

2022-ci və 2023-cü illərdə Azərbaycanda keçirilmiş Minatəmizləmə fəaliyyəti üzrə əvvəlki Beynəlxalq konfransları və onların yekun sənədlərini ***təqdir edərək;***

Minaların və müharibənin partlayıcı qalıqlarının mülki əhali üçün ciddi və davamlı sosial-iqtisadi təsirləri ilə bağlı narahatlığı ***ifadə edərək;***

Minatəmizləmə fəaliyyətinin sülh quruculuğu prosesində etimadı möhkəmləndirən dəyərli tədbir olduğunu ***vurğulayaraq;***

1. Humanitar minatəmizləmənin ekoloji aspektlərinin minatəmizləmə ilə bağlı səylərə inteqrasiya olunmasına ***çağırırıq;***

2. Texniki, maliyyə və maddi yardım, təlimlər də daxil olmaqla, adekvat və müvafiq resursların ayrılması, o cümlədən minatəmizləmə üsulları və texnologiyaları üzrə tədqiqat və inkişafı təşviq etməklə mina qurbanlarına yardım, minalardan təmizləmə və risklərlə bağlı maarifləndirilmə kimi onun bütün sahələrində minatəmizləmə fəaliyyətini dəstəkləmək üçün bütün dövlətləri və digər maraqlı tərəfləri buna ***dəvət edirik;***

3. Minaların və müharibənin partlayıcı qalıqlarının səbəb olduğu itkilərin qarşısının alınması və mina qurbanlarına tibbi xidmət, reabilitasiya və cəmiyyətə reinteqrasiya daxil olmaqla fəal dəstəyin təmin edilməsi ilə bağlı kompleks tədbirlərin görülməsinin zəruri olduğunu vurğulayırıq, dövlətləri və müvafiq təşkilatları bu səylər üçün resurslar ayırmağa və təcrübələrini bölüşməyə ***çağırırıq;***

4. Minatəmizləmə fəaliyyətinin ətraf mühitlə bağlı milli və beynəlxalq strategiyalara inteqrasiyasını təmin etməklə, iqlim dəyişmələrinin təsirinin azaldılması, uyğunlaşma və dayanıqlılığa dair müzakirələrə və strategiyalara minatəmizləmə fəaliyyətini daxil etməklə, Birləşmiş Millətlər Təşkilatının iqlim konfranslarını minaların və müharibənin partlayıcı qalıqlarının ətraf mühitə təsirini qəbul etməyə və həll etməyə, həmin sahə üçün resursların ayrılmasına ***çağırırıq;***

5. Minatəmizləmə fəaliyyətinin 2030-cu il Gündəliyinə daxil edilməsinin vacibliyini vurğulayır və bu məsələnin cari ilin sonunda keçiriləcək Gələcəyin Sammitində nəzərdən keçirilməsini ***tövsiyə edirik;***

6. Dövlətləri və müvafiq maraqlı tərəfləri bilik, təcrübə və texnologiya sahələrində mübadilə vasitəsilə əməkdaşlığı genişləndirməyə ***çağırırıq***; Bu xüsusda, biz Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) arasında Minatəmizləmə fəaliyyəti ilə əlaqədar Mükəmməllik Mərkəzinin yaradılmasına dair imzalanmış niyyət bəyanatını ***alqışlayırıq***;

7. BMT-nin üzv dövlətlərini minatəmizləmə ilə bağlı, o cümlədən minaların basdırıldığı yerlər haqqında məlumat mübadiləsinə dair müvafiq beynəlxalq öhdəliklərinə əməl etməyə ***çağırırıq;***

8. Minaların və müharibənin partlayıcı qalıqlarının mülki əhali üçün ciddi təhlükə yaratdığı, eləcə də ətraf mühitə, ərzaq təhlükəsizliyinə və daha geniş sosial və iqtisadi inkişafa əngəl törətdiyi ölkələrdə milli minatəmizləmə potensialının yaradılmasına və inkişafına dəstək vermək məqsədilə dövlətləri və müvafiq təşkilatları səylərini davam etdirməyə ***çağırırıq;***

9. Təsirə məruz qalmış dövlətləri, BMT-nin aidiyyəti qurumlarını, minatəmizləmə fəaliyyəti ilə məşğul olan regional təşkilatları və qurumları, QHT-ləri minalarla çirklənmənin mənfi təsirlərinin azaldılması istiqamətində səylər və həll yollarını səfərbər etmək üçün minatəmizləmə fəaliyyətinin ekoloji aspektini proaktiv şəkildə aktuallaşdırmağa ***çağırırıq;***

10. Bu konfransın keçirilməsinə hərtərəfli dəstəyinə və yüksək qonaqpərvərliyinə görə Azərbaycan Respublikasının Hökumətinə ***minnətdarlığımızı bildiririk.*** Biz, həmçinin Azərbaycanla, eləcə də minadan zərər çəkmiş bütün ölkələrlə onların minalarla bağlı böyük probleminin həllində həmrəy olduğumuzu bildirir və beynəlxalq ictimaiyyəti Azərbaycanın humanitar minatəmizləmə sahəsində səylərini dəstəkləməyə ***çağırırıq***;

11. 2024-cü il BMT-nin İqlim Dəyişmələri Konfransına (UNFCCC COP29) sədrliyində Azərbaycana uğurlar ***arzulayırıq".***

**XQ**

# Zatulinin “kilsə fantaziyası”

(əvvəli 1-ci səhifədə)

Əslində, Zatulin, belə demək mümkünsə, hansı nöqtəni nişan aldığının fərqindədir. Əvvələ, o, gözünün içinə qədər yalan danışır. Alban kilsəsi tarixən müstəqil şəkildə mövcud olub, heç vaxt erməni kilsəsinin tabeliyində yer almayıb. Alban kilsə məclisləri çağırılanda ermənilərin nəinki Qarabağda, heç Qafqazda da izi-tozu yox idi. Əgər Zatulin kimi düşüncə sahibləri meydana çıxarlarsa, onlar 1830-cu ildən, yəni ermənilərin regiona köçürülməsindən sonra sırınan düşüncənin daşıyıcılarıdır.

Bəli, Qarabağdakı kilsələr qədim alban kilsələridir. Bunu təsdiqləyən nişanələr kifayət qədərdir. O da məlumdur ki, ermənilər işğal illərində həmin nişanələri silməklə tarixi izləri sıradan çıxarmaq istəyib, həmin mədəni miras nümunələrini erməniləşdirmək yolunu tutublar. Hazırda Azərbaycan, bütün sahələrdə ədaləti bərpa etdiyi kimi, alban kilsələri xüsusunda da eyni addımı atır. Bu isə Ermənistanda, xaricdəki ermənipərəst dairələrdə ciddi narazılıq yaradır.

Qeyd edək ki, Qarabağdakı erməni mədəni mirası məsələsi rəsmi İrəvanın siyasətində mühüm halqanı təşkil etməkdədir. Ermənistan hakimiyyəti mövcud xüsusda beynəlxalq təbliğat aparır və bu təbliğatın məqsədi Azərbaycanı ləkələməkdir. Rəsmi İrəvan nəinki anti-Azərbaycan təbliğatı aparır, eyni zamanda, erməni mədəni mirası ilə əlaqədar məsələni beynəlxalq məhkəmələrdə də qaldırmaq yolunu tutur. Məqsəd ölkəmizə qarşı antipatiya formalaşdırmaqla yanaşı, həm də belə demək mümkünsə, tutacaq yer tapmaqdır. Yəni, erməni başbilənlər elə düşünürlər ki, Azərbaycanın hansısa bölgəsindəki abidənin beynəlxalq miqyasda onlara məxsusluğu təsdiqini tapsa, gələcəkdə həmin abidənin qərarlaşdığı torpaq ilə bağlı ərazi iddiası qaldıra bilərlər. Ortada bu qədər dərin düşünülmüş məkr var. Zatulin həmin məkrin reallaşdırılmasındakı rus maşasıdır.

Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini haqqında söz açdığımız iclasdakı çıxışında onu da bildirib ki, 2020-ci ildə rus sülhməramlıları Qarabağa daxil olarkən, erməni tərəfinin xahişi ilə Dadivəng (Xudavəng – red.) monastırında məsuliyyət zonasına daxil olmayan ayrıca post yaratdılar. Bu, həmin abidənin qorunub saxlanmasının vacibliyindən irəli gəlirdi. “Bu gün bilirsiniz, orada post yoxdur və bu monastırın adı artıq dəyişdirilib, Azərbaycan transkripsiyasında başqa adla gedir. Bu, mədəni və tarixi irsə qarşı birbaşa cinayətdir və hesab edirəm ki, bu, mütləq bizim yekun bəyanatımıza daxil edilməlidir”, – deyən Zatulinin bu fikrini onun may sərsəmləməsinin kulminasiyası saymaq mümkündür.

Məsələ burasındadır ki, Kəlbəcər rayonundakı Xudavəng monastırının inşa olunduğu 1214-cü ildə həmin ərazidə erməni millətindən bir kimsə olmayıb. Ola bilər ki, erməni adı daşıyan hansısa canlı qeydə alınıb, o başqa məsələ. Amma bu, əsas vermir ki, zatulinkimilər fəsiləsində yer alanlar Xudavəngin erməni mədəni mirası olduğu barədə fikir bildirsinlər.




Nəzərə alaq ki, Birinci Qarabağ müharibəsi zamanı Xudavəng monastırının yerləşdiyi Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra, 1994-cü ildə monastır yenidən istifadəyə verilmişdi. 2004-cü ildə erməni əsilli ABŞ iş adamı Edel Hovnanyan orada restavrasiya işləri apartdırmışdı ki, proses 2005-ci ildə tamamlanmışdı.

2017-ci ilin avqustunda isə əvvəllər Xudavəng monastırında restavrasiya aparmış italyan mütəxəssislər işlərini davam etmək üçün geri qayıtmışdılar. İşlərin 2020-ci ilə qədər tamamlanması planlaşdırılmışdı. İkinci Qarabağ müharibəsi nəticəsində Kəlbəcər Azərbaycana qaytarılmış, ermənilər Xudavəng monastırını tərk etmiş, kompleksdəki xristian incəsənət nümunələrini, o cümlədən, zınqırov və xaç daşları Ermənistana aparmışdılar. Zatulinin menyusu üçün deyək ki, hayların belə oğru davranışları Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən qeyri-qanuni fəaliyyət adlandırılmışdı. Heç şübhəsiz, mövcud istiqamətdə zəruri hüquqi prosedurların tətbiqi üçün tədbirlər görüləcək.

Yeri gəlmişkən, 2020-ci ilin dekabrında İrəvandakı xalq sənətləri muzeyində “Dadivəngdən İrəvana” adlı satış-sərgi keçirilmişdir. Sərgidə Xudavəng kompleksindən gətirilmiş Bibliya, xaçlar, ikonalar, suvenirlər, həmçinin kitablar, fotoalbomlar nümayiş olunmuşdur. Əlbəttə, burada əsas olan sərgi yox, monastırdan gətirilmiş əşyaların satılması idi.

Onu da bildirək ki, ölkəmizin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Mübariz Qurbanlı 2023-cü ilin mayında “Heydər Əliyev 100: azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərlərimiz” mövzusundakı konfransdan sonra jurnalistlərə açıqlamasında demişdi ki, Xudavəng monastırındakı erməni keşişlər oranı tərk etməlidir: “Əminəm ki, onlar oradan çıxıb gedəcəklər. Xudavəng monastırı Qafqaz Albaniyasına məxsus abidədir. Gec-tez Alban-udi icması tərəfindən hər şey yoluna qoyulacaq. Ermənilərin ora aidiyyəti yoxdur”.

Bəli, Qarabağımızda heç nəyin ermənilərə aidiyyəti yoxdur. Bu, danılmaz faktdır və elmi əsaslara malik həqiqətdir. Zatulinin dostlarının otuz illik işğal dövründə ərazilərimizdəki mədəni miras nümunələri ilə vandalcasına rəftarı da həmçinin. Yaxşı olar ki, rusiyalı parlamentari erməni sevgisini işə salanda vicdan hissini də unutmasın. Hərçənd, bu şəxsin həmin hissi heç zaman daşımadığını da söyləmək mümkündür. Çünki ağır hisslər cılız adamlar üçün deyil. Zatulin isə cılızlığını dəfələrlə sübuta yetirib. Görünür, bundan sonra da “ampluasına” sadiq qalacaq.

Sonda bir məqamın üzərində dayanaq. Zatulinlər vaxtilə Rusiya üçün lazım idilər. Ölkədəki bəzi dairələr onların köməyi ilə anti-Azərbaycan fəaliyyət gerçəkləşdirirdilər. Hazırkı məqamda rəsmi Moskva kimin kim olduğunu anlamağa başlayıb. Deməli, Zatulin və onun kimi üfunət qoxuyan siyasət dəllallarının tarixin zibilliyinə atılmasının da vaxtı çatıb.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Delimitasiya: yeni dirəklər harada basdırılacaq?

## *Erməni mediası prosesin Tovuz və Gədəbəy istiqamətində gedəcəyini iddia edir*

**Azərbaycanla Ermənistan arasında gedən sülh prosesi çərçivəsində sərhədlərin delimitasiyası və demarkasiyası davam edir. Cənubi Qafqazda dayanıqlı sülhə nail olunması üçün əməli işlər görülür. İki ölkənin XİN başçıları problemləri “tet-a-tet”, masa arxasında həll edərək razılaşmaya gəlirlər. İlk nəticə göz qabağındadır. Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi komissiyanın qərarı ilə 1990-cı illərin əvvəllərində işğal olunmuş Qazax rayonunun 4 kəndi Azərbaycana qaytarıldı, iki ölkə sərhədinin bir hissəsinin delimitasiya və demarkasiyası aparıldı.**



Hazırda iki dövlətin ekspert qruplarının birgə fəaliyyəti davam edir. İrəvan isteblişmentinin sərhəd xəttinin dəqiqləşdirilməsi işlərinin tezliklə başa çatdırılması üçün siyasi iradə göstərməsi təqdirəlayiq haldır.

“Bizə sülhməramlılar lazım deyil, sərhədlərimizi düzəltmək lazımdır”. Ermənistan parlamentinin sədri Alen Simonyan sözlərinə onu da əlavə edib ki, sərhədin təhlükəsizliyinin ən təsirli təminatı onun legitimliyidir. Erməni spikerin sözlərinə görə, Tavuş–Qazax hissəsində sərhəd dirəklərinin quraşdırılması Ermənistan və Azərbaycanın bir-birinə qarşı ərazi iddialarının olmaması deməkdir.

Məgər Bakının üç ildən bəri İrəvana etdiyi təklifin mahiyyəti bu deyildi? Paşinyan iqtidarı ikitərəfli danışıqlarda da bu cür anlayış nümayiş etdirsə, sülh sazişinin imzalanması heç də dağlar arxasında deyil.

*

Bəs, sərhədin delimitasiya və demarkasiyasının aparılacağı növbəti ərazi haradan keçir? İndi qarşılıqlı addım hansı ərazidə atılacaq? Baş nazirlərin müavinləri Şahin Mustafayev və Mqer Qruqoryanın rəhbərlik etdikləri hökumətlərarası komissiyanın nə vaxt və harada görüşəcəyi barədə hələlik səhih məlumat verilməsə də, qarşıdakı danışıqların gündəliyində Azərbaycanın Ermənistan ərazisində anklavları sayılan Qazax rayonunun Yuxarı Əskipara, Sofulu və Bərxudarlı kəndlərinin olduğu şübhəsizdir.

Əgər erməni mənbələrindən gələn xəbərlərə inansaq, danışıqların növbəti mərhələsində Tovuz–Gədəbəy istiqamətində keçən sərhəd xəttinin delimitasiyası ilə bağlı qarşılıqlı razılıq əldə oluna bilər. “Hraparak” qəzetinin yazdığına görə, Ermənistanın Azərbaycanla həmsərhəd Qeqarkunik rayonunun Çəmbərək icmasına daxil olan Vahan kəndinin sakinlərinin diqqətini ətrafdakı dağlıq ərazilərdə tədqiqat aparanlar çəkib. Qəzetin yazdığına görə, guya, kənd sakinləri iddia edirlər ki, Azərbaycan bu ərazidə Ermənistan ordusunun 12 döyüş mövqeyini tələb edir və Bakıya onların “təslim ediləcəyi” vədi verilib.

Yeri gəlmişkən, yada salaq ki, 1990-cı illərin əvvəllərində gedən döyüşlərdə erməni qoşunları Gədəbəy və Tovuz rayonları istiqamətində inzibati sərhədi keçə bilmədi. Hazırda Azərbaycan və Ermənistan ordularının mövqeləri şərti sərhədin Tovuz və Gədəbəy istiqamətində yerləşir. Qazax istiqamətində sərhədin delimitasiyası ilə bağlı danışıqlar 1975-ci il SSRİ Silahlı Qüvvələri Baş Qərargahının xəritəsi və 1991-ci il Alma-Ata Bəyannaməsində öz əksini tapmış prinsiplər əsasında aparılıb. Rəsmi İrəvanın qənaətinə görə, sərhədlə bağlı danışıqların sonrakı mərhələlərində də eyni xəritədən və həmin prinsipdən faydalanmaq barədə ümumi anlayış var. Fəqət, bu məsələdə Bakı son və qəti qərarını hələ verməyib. Yəni, ehtimal edə bilərik ki, indi Tovuz və Gədəbəy istiqamətində delimitasiya ilə bağlı razılaşma üçün zəmin yaranıb.

*

Erməni mətbuatının delimitasiya mövzusunda irəli sürdüyü versiyalardan biri də danışıqların müzakirə predmeti kimi vaxtilə Sovetlərin inzibati sərhədləri daxilində Azərbaycanın Gədəbəy rayonu ərazisində yerləşən və anklav sayılan Başkənd məsələsi ola bilər. Hətta, bəzi hay ekspertlər tərəflərin anklavların mübadiləsini nəzərdən keçirə biləcəyini istisna etmirlər.

Xatırladaq ki, Qazax rayonunun 3 kəndi ilə yanaşı, Naxçıvanın Məğri anklavı da hazırda Ermənistanın nəzarətindədir. Rəsmi Bakı qalib tərəf kimi kəndlərin qeyd-şərtsiz azad olunmasını tələb edə bilər. Bu variantı da erməni mediası irəli sürür.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov** mövzu ilə



bağlı “XQ”-yə açıqlamasında bildirdi ki, sərhədin delimitasiya və demarkasiya prosesinin davam etdirilməsi zamanı Ermənistanın daxilində cərəyan edən hadisələr nəzərə alınır: “Prosesə mane olan qüvvələr üçün geri aldığımız dörd kənd bəhanədir və onlar Tavuş sindromunu özlərinin siyasi tələbləri üçün bəhanə seçiblər. Hesab edirəm ki, məhz Ermənistandakı daxili gərginliyə görə hökumətlərarası komissiyanın işində müvəqqəti fasilə yaranıb. Komissiyanın rəsmi razılaşma əsasında təsdiqlədiyi qərarlar dəyişdirilə bilməz. Azərbaycan hakimiyyətinin sərhədlərin delimitasiyası ilə bağlı aydın mövqeyi var. Hər halda danışıqların növbəti raundunda komissiya konkret təklifini verəcək. Yaxud İrəvanla birgə hazırlanmış hansısa plan ortaya qoyulacaq. Şəxsən mənə elə gəlir ki, delimitasiya üçün yeni sərhəd ərazisi təyin olunmazdan əvvəl kommunikasiyaların qarşılıqlı surətdə açılması məsələsi gündəliyə salınacaq. Çünki, açılacaq quru, dəmir yolu üzərində gömrük və sərhəd postlarının qurulması məsələsi var. İkinci variant isə delimitasiyanın protokol üzrə davam etdirilməsidir. Çünki, sərhədin bir hissəsi dağlıq, çətin keçilən ərazilərə düşdüyündən prosesi bu ilin payızına qədər yekunlaşdırmaq daha məqsədəuyğundur”.

Hökumətlərarası komissiyanın öz işini şərti sərhədin rahat və problemsiz hissəsində davam etdirəcəyini, orada sərhəd xidmətlərinin yerləşdiriləcəyini mümkün sayan hərbi ekspert digər ərazilərlə bağlı məsələnin sonrakı mərhələyə qalacağını istisna etmədi.

*

Ermənistan mediası dörd kənd məsələsinin müzakirəsini hələ də davam etdirir. İki gün bundan əvvəl erməni jurnalistlərin bununla bağlı Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Edvard Asryana verdikləri sual onu bərk qəzəbləndirib. O, birmənalı şəkildə bildirib ki, Çemberek istiqamətində 12 döyüş mövqeyinin Azərbaycana veriləcəyi ilə bağlı deyilənlər həqiqətə uyğun deyil: “Sadəcə olaraq, əgər delimitasiya ilə bağlı qarşılıqlı razılıq əldə olunarsa, Ermənistan ordusu həmin mövqeləri tərk edərək, ərazini sərhədçilərə təhvil verməlidir. Eynilə Qazax rayonu istiqamətində olduğu kimi”.

Amma Ermənistanın yazılı və elektron mediası, nədənsə, ordularının işğaldan azad edilmiş Azərbaycan kəndlərindəki mövqelərini tərk etdiyi barədə danışmağa və yazmağa həvəs göstərmir. Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi müxbirin bu yöndə sualına da sərt reaksiya verib: “Mənə belə suallar verməyin. Silahlı qüvvələr tutduqları mövqeləri tərk etmirlər. Silahlı qüvvələrin mühafizə ərazisi kimi konkret mövqeyi göstərilmir. Çünki ordu bölmə, dairə, baza şəklində təyin edilir. Mövqeyə gəlincə, siz taktiki halqa barədə soruşursunuz. Ermənistan silahlı qüvvələrinin baş qərargahı strateji problemləri həll edir, strateji halqada isə ordu zonası, briqada, zona, alay, bölüm, rota əsasdır. Biz əvvəlcədən müəyyən edilmiş sektorlardayıq və verilən tapşırıqları yerinə yetirməyə davam edirik”.

Azərbaycana bundan sonra təhvil veriləcək ərazilərlə bağlı jurnalistin sualını erməni general belə cavablandırıb: “Bizim bütün nöqtələrdə, hər bir əməliyyat istiqamətində müxtəlif infrastrukturumuz var. İndi həmin istiqamətdə sərhəd qoşunları üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirirlər. Ordu var və o, heç yerə gedə bilməz. Sərhəd qoşunlarının xidmət göstərdiyi ərazi də ordunun məsuliyyət sahəsinə daxildir. Biz burada təhlükəsizliyi təmin etməyə hazırıq”.

*

Nəhayət, baş qərargah rəisi birmənalı şəkildə bəyan edib ki, Azərbaycana qaytarılan ərazilər Ermənistana aid deyildi: “Ona görə də sərhədlər delimitasiya və demarkasiya edildikdən sonra həmin ərazilər Ermənistan ordusunun məsuliyyət zonasına daxil edilə bilməzdi”.

Bəli, Ermənistanın siyasi və hərbi rəhbərliyində reallığı olduğu kimi qəbul edənlərin, sağlam məntiqə söykənənlərin sırası genişlənməkdədir. Elə baş nazir Nikol Paşinyanın üç gün bundan öncə parlamentdəki çıxışında Bakı ilə sülh müqaviləsinə çox yaxın olduqlarını və onun tezliklə imzalanacağını əminliklə deməsi bunun əyani sübutudur. O, Azərbaycanla Ermənistan arasında bütün fikir ayrılıqlarının aradan qalxdığını, razılaşmaların, sadəcə, sülh müqaviləsinə köçürülməsinin qaldığını qeyd edib.

Ermənistan baş naziri noyabrda Bakıda keçiriləcək COP29-un sülh müqaviləsinin imzalanması üçün əla fürsət olması ilə bağlı bəyanatları da şərh etmişdi: “Ümid edirəm ki, razılıq əldə olunacaq. Daha dəqiq desək, bu razılaşma 2022-ci il oktyabrın 6-da Praqada, sonra Soçidə, Brüsseldə əldə edilib. Əsas prinsiplər razılaşdırılıb, onların sülh müqaviləsinin mətnində təkrarlanması qalır. Hesab edirəm ki, bizim bu işi tez bir zamanda başa çatdırmaq imkanımız var”.

Bəli, Bakı İrəvan üçün bütün imkanları yaradıb. O da buna adekvat olaraq qonşularla sülhə gəlməyin zamanının yetişdiyini anlamalıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Milli Məclisin plenar iclası



**Milli Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçirilib. Spiker Sahibə Qafaqova əvvəlcə Milli Məclis nümayəndə heyətinin İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin “Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması” mövzusunda 4-cü Beynəlxalq Konfransında iştirakı, səfər çərçivəsində keçirilən görüşlər və Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətinin oxunması barədə məlumat verib.**

Gündəliyin birinci məsələsi barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verərək cari ilin yanvar-aprel aylarında Azərbaycan iqtisadiyyatında yaranmış əlavə dəyərin 38,2 milyard manat, iqtisadi artım tempinin 4,3 faiz təşkil etdiyini diqqətə çatdırıb. O, artımın tamamilə qeyri neft – qaz sektoru hesabına təmin edildiyini və bu dövrdə iqtisadiyyatın bu sahəsində 24,2 milyard manatlıq məhsul istehsal olunduğunu bildirib. Dövlət büdcəsinin gəlirləri proqnozdan əlavə 1 milyard 115,1 milyon manat olub, xərclər isə 123,6 faiz icra olunub. İxracın miqdarı isə idxala nisbətən 2,5 milyard dollar çoxdur. Qeyd edilib ki, yenidən baxılacaq 2024-cü il icmal büdcənin əsas parametrlərinə dair icmal büdcənin gəlirləri 43 milyard 480 milyon manat, xərcləri isə 45 milyard 592 milyon manat proqnozlaşdırılır.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsinə Hesablama Palatasının rəyini təqdim edib. Sədr bununla yanaşı, “Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında” və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” qanunlarda dəyişiklik edilməsi barədə” qanun layihələrinə dair Hesablama Palatasının rəylərini də diqqətə çatdırıb. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra S.Qafarova iyun ayında Milli Məclisin növbədənkənar sessiyanın çağrılacağını bildirib. O vurğulayıb ki, ali qanunverici orqan Prezident İlham Əliyevin Andiçmə mərasimində söylədiyi proqram xarakterli nitqində Azərbaycan dövlətinin yeni dövrün tələblərindən irəli gələn vəzifələrini müəyyən edib və Milli Məclis yaz sessiyasındakı fəaliyyətini həmin vəzifələrə və onlardan irəli gələn tələblər səviyyəsində qurmağa çalışıb. Spiker həmçinin deyib ki, sessiya ərzində parlamentin 13 iclası keçirilib, 61 qanun qəbul edilib. Yəni, 2 yeni qanun qəbul olunub, 50 qanunda dəyişiklik aparılıb, 9 beynəlxalq müqavilə təsdiq olunub.

## Niderland Nümayəndələr Palatasının qərəzi pislənib

**Milli Məclis Niderland Parlamenti Nümayəndələr Palatasının ölkəmizi hədəf alan ədalətsiz və birtərəfli qətnaməsinə qəti etirazını bildirib və bu hərəkəti irqçi, azərbaycanofob, türkofob və islamofob siyasi aksiya kimi qiymətləndirərək şiddətlə qınayıb. Parlamentin yaydığı bəyanatda, eyni zamanda, bildirilib ki, qətnamədə ölkəmizə qarşı irəli sürülmüş ittihamlar həm reallıqların təhrifinə, həm də yalan və saxta məlumatlara əsaslanır.**

Sənəddə o da vurğulanıb ki, Niderland Parlamenti 44 günlük müharibədəki zəfərindən sonra Azərbaycana qərəzli münasibətini dəfələrlə göstərib. Hazırda Ermənistanla sülh danışıqlarının aparıldığı və bu istiqamətdə müəyyən ümidverici nəticələrin əldə edildiyi bir şəraitdə qurumun tutduğu mövqe siyasi bəsirətsizliyin və məsuliyyətsizliyin bariz nümunəsidir. Bu mövqe yalnız Cənubi Qafqaz regionunun deyil, bütövlükdə Avropanın sülh, sabitlik və dayanıqlı inkişafla bağlı maraqlarına ziddir.

Milli Məclisiin bəyanatında, həmçinin, Niderland Parlamentinin Nümayəndələr Palatası, eləcə də bu ölkənin rəhbər şəxsləri Azərbaycanın daxili işlərinə qanunsuz müdaxilələrdən, artıq tarixə qovuşmuş münaqişəni yenidən alovlandırmaq niyyətindən uzaq durmağa, uzunmüddətli sülh yaradılmasına yönələn addımlar atmağa çağırılıb.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Xarici İşlər Nazirliyi xəbər verir

**Mayın 30-da Xarici İşlər naziri Ceyhun Bayramov Pakistana rəsmi səfəri çərçivəsində bu ölkənin silahlı qüvvələrinin quru qoşunlarının komandanı, baş qərargah rəisi Asim Munir ilə görüşüb.**



Görüş əsnasında iki ölkə arasında müdafiə və hərbi sahədə əməkdaşlığın perspektivləri, habelə müdafiə sənayesi sahəsində iki ölkənin ixtisaslaşmış qurumları arasında əməkdaşlıq məsələləri müzakirə edilib.

İki ölkənin silahlı qüvvələri arasında qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılması, habelə müvafiq qoşun növləri arasında təcrübə mübadiləsinin həyata keçirilməsi üçün ikitərəfli, habelə Azərbaycan–Türkiyə–Pakistan formatında üçtərəfli hərbi təlimlərin əhəmiyyəti qeyd edilib.

Görüş zamanı digər qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*

**Həmin gün Riqada Azərbaycan ilə Latviya arasında Strateji Dialoqun üçüncü iclası keçirilib.**

Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Latviya nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyi dövlət katibinin müavini– siyasi direktor Anjeys Vilumsons rəhbərlik ediblər.

İclasda iki ölkə arasında ənənəvi dostluğa və qarşılıqlı etimada əsaslanan strateji tərəfdaşlıq və onun gücləndirilməsi imkanları, o cümlədən, siyasi, iqtisadi, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Cari ilin noyabrında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq və görüləcək işlərlə bağlı qarşı tərəf məlumatlandırılıb.

***XQ***

# Azərbaycan–Türkiyə əməkdaşlığı möhkəmlənir



**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Kəşfiyyat Baş İdarəsinin rəisi general-polkovnik İsmail Günaydının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Mayın 29–30-da qardaş ölkəyə işgüzar səfərindən məmnunluq ifadə edən general-polkovnik Z.Həsənov Türkiyədə keçirilən “EFES-2024” çoxmillətli təliminin təşkilatçılığını, eləcə də hərbi qulluqçuların peşəkarlığını yüksək qiymətləndirib.

General-polkovnik İ.Günaydın isə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əlaqələrin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığını qeyd edib.

*

Müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev də Türkiyə nümayəndə heyəti ilə görüşüb.

# Ermənistanda qarşıdurma səngimir

**(əvvəli 1-ci səhifədə)**



O, həmçinin qeyd edib ki, Mirzoyanı şəxsən tanıyır. Qalstanyan 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə baş vermiş hadisələri xatırladıb. Qeyd edək ki, həmin gecə müharibənin başa çatmasını şərtləndirən üçtərəfli bəyanat imzalandıqdan sonra qəzəblənmiş kütlə İrəvanda parlament binasına soxularaq talançılıq edib. Həmin vaxt parlamentin sədri postunu tutan A.Mirzoyanın özü də hücuma məruz qalıb, o, şiddətlə döyülüb. Bunu nəzərdə tutan Qalstanyan vurğulayıb ki, Mirzoyan “baş nazir Paşinyanın siyasətinin ilk qurbanı” olub.

“Siz Xocalı hadisələri və dövlətimizlə bağlı digər açıqlamalara cavab verəcəksinizmi? Cəsarətiniz varmı? BMT kürsüsündən üzləşdiyiniz tənqidləri nə ilə izah edirsiniz?” – deyə Qalstanyan bildirib.

Baqrat mayın 9-da keçirilən mitinqdə Paşinyana istefa verməsi üçün bir saat vaxt verdiyi kimi, dünən Mirzoyana da bir saat vaxt verib. Ancaq, təbii ki, Mirzoyan nə etirazçılarla görüşə gedib, nə də istefa verib. Bir saat tamam olduqdan sonra Qalstanyan qadınlara geri çəkilmələri üçün göstəriş verib. Sonra o, tərəfdarlarına nazirliyin binasını tutmağı tapşırıb. Bu anda vəziyyət qəfildən gərginləşib. Etirazçılar arasında açıq-aşkar aqressiv əhval-ruhiyyəli təxribatçılar olublar.

Polis etirazçılara XİN-in binasının xüsusi mühafizə olunan obyekt olduğuna dair xəbərdarlıq edib və kütlənin qarşısını almağa çalışıb. Binanın qarşısına əlavə polis qüvvələri cəlb olunub. Polis etirazçıları saxlamağa başlayıb. Saxlanılanlar arasında deputat Qarnik Danielyan da olub.

Ermənistan polisi baş verən toqquşmalar zamanı 26 etirazçının saxlanıldığı barədə məlumat yayıb. Toqquşmada 3 polis əməkdaşı xəsarət alıb. Bundan sonra B.Qalstanyan aksiyanın başa çatdığını elan edib.

Bundan sonra “Vətən naminə Tavuş” hərəkatının nümayəndələri və tərəfdarları Sayat-Nova küçəsi, Maştots prospekti və Amiryan küçələri ilə yürüş edərək, baş prokurorluq binasına gəliblər. Burada keçirilən aksiyada çıxış edən keşiş deyib ki, prokurorluq bütün bu dövr ərzində dövlətə xidmət etməli idi, amma baş prokuror yalnız Ermənistanın baş nazirinə hesabat təqdim edir. Onun nə mənəvi, nə də hüquqi mənada bunu etməyə haqqı yoxdur.

Ermənistan mediası isə daxili işlər nazirliyi rəhbərinin istefaya getmək istəyi barədə məlumat yayıb. “Hraparak” qəzeti öz mənbələrinə istinadən yazır ki, nazir Vahe Kazaryan bir neçə dəfə istefa verməyə cəhd edib, lakin N.Paşinyanın təkidi ilə bunu etməyib: “Ancaq Paşinyanın da onu əvəz etməyə meyilli olmasına dair xəbərlər var. Hətta Kazaryana dövlət təhlükəsizliyi xidmətinin rəhbəri vəzifəsini tutmağı təklif ediblər ki, bu da istefaya bərabərdir”.

Media hakim “Mülki müqavilə” partiyası deputatlarının kilsənin əldə etdiyi gəlirlərin və əmlakının vergiyə cəlb edilməsi ilə bağlı qanun layihəsi hazırladığına dair də məlumat yayıb. Deputat Tsovinar Vardanyan bildirib ki, layihə hələ hazır deyil, lakin bu istiqamətdə iş aparılır: “Kilsə vergi ödəyicisidir, lakin söhbətin nədən getdiyini anlamaq lazımdır. Ola bilsin kilsə işçiləri gəlir vergisi ödəyirlər, bu, yaxşıdır. Amma deputatlar indi kilsənin idarə etdiyi minlərlə əmlakı araşdırırlar”.

Bu arada B.Qalstanyanın “Çiçəklənən Ermənistan” partiyasının rəhbəri Qaqik Sarukyanla görüşməsinə dair məlumat yayılıb. Sarukyanın mətbuat katibi İveta Tonoyan bununla bağlı “Facebook” səhifəsində yazıb: “Bu gün “Telegram” kanallarından birində məlumat yayılıb ki, Qaqik Sarukyanla Baqrat Qalstanyan arasında görüş baş tutub. Qeyd edilib ki, Sarukyan bəzi səbəblər göstərərək, Qalstanyanın hərəkata qoşulmaq xahişini rədd edib. Bildirirəm ki, həmin məlumatın birinci hissəsi istisna olmaqla, qalan hissəsi uydurmadır və reallığa uyğun deyil. Sarukyan, həqiqətən də, Qalstanyanı öz evində, ailəsinin nahar süfrəsində qonaq edib”.

Tonoyanın sözlərinə görə, görüşdə siyasi məsələlər müzakirə edilməyib: “Məlum olduğu kimi, erməni qonaqpərvərliyi qaydalarına görə, evdə qonaqla işgüzar müzakirə aparmaq, hətta siyasi məsələlər haqqında söhbət etmək adət deyil. Baqrat Srbazan bir neçə gün əvvəl Qaqik Sarukyana təbii fəlakətdən zərər çəkmiş yaşayış məntəqələrinə yardım əlini uzatmaq xahişi ilə müraciət etmişdir. Sarukyan dərhal müsbət cavab vermiş və dəstəyin göstərilməsi prosesini təşkil etmək üçün dərhal xeyriyyə fondunun əməkdaşlarına göstəriş verəcəyini vurğulamışdır”.

Baş nazir Nikol Paşinyan isə müxalifətin mitinqləri fonunda ölkədə daxili siyasi böhranın olmadığını bildirib. “Ermənistanda daxili siyasi böhran yoxdur”, – deyən Paşinyan jurnalistlərə açıqlamasında onu da bildirib ki, dövlət orqanları öz funksiyaları çərçivəsində işləyirlər.

Ermənistanda bir aydan çoxdur davam edən etiraz aksiyalarını Rusiya ilə əlaqələndirənlər də az deyil. Hərçənd ki, ona rəhbərlik edən B.Qalstanyan 10 ildən çox Kanadada yaşayıb işləyib. “Srbazan” Kanada vətəndaşlığına da malikdir. Bu kimi halların mövcudluğuna baxmayaraq, Rusiya amili son vaxtlar daha tez-tez səslənir. Mayın 30-da “Armenian Report” saytında yerləşdirilmiş “Qərb QHT-ləri Ermənistanda rusiyayönlü müxalifətə çiyin-çiyni veriblər” sərlövhəli analitik yazıda bildirilib ki, hər bir Qərb QHT-sinin arxasında bu və ya digər dövlət qurumlarının – ABŞ Dövlət Departamentinin, Mərkəzi Kəşfiyyat İdarəsinin, Fransanın DGSE, Böyük Britaniyanın Mİ6 xarici kəşfiyyat strukturlarının dayandığı hamıya çoxdan məlumdur. Qeyd edilib ki, Qərb QHT-lərinin hamısı kuratorlarının əmrlərini yerinə yetirirlər: “Məqsədləri Paşinyana təzyiq etməkdir ki, onların bu və ya digər göstərişlərini yerinə yetirsin. Beləliklə, burada hər şey çox aydındır”.

Yazıda deyilir: “Qərbin “dostundan” düşməninə çevrilmək nə dərəcədə asandır? Burada cavab göz qabağındadır. Bunun üçün sadəcə olaraq, ölkədə qanunun aliliyini və onun suverenliyini ciddi şəkildə qorumaq lazımdır. Bunu etməyə başlayan kimi dərhal qınaq obyektinə çevrilirsən. Bunun bariz nümunəsi qonşu Gürcüstandır ki, onun hakimiyyəti xarici agentlər haqqında qanun qəbul etdiyinə görə Qərbin kəskin tənqid obyektinə çevrilib. Sonra Tbilisiyə Dövlət Departamenti hücum etdi. Brüsseldə ölkənin Avropa İttifaqı üzvlüyünə namizədliyinə baxılmasının təxirə salınması barədə danışmağa başladılar və bu zaman Qərb QHT-ləri də “təşvişə” düşdülər. Görünür, Ermənistan üçün də bu “kədərli aqibətdən” qaçmaq mümkün deyil”.

Qeyd olunur ki, erməni KİV-ində dərc olunan məlumatlara görə, bir sıra Qərb QHT-ləri “polisin İrəvanda müxalifət fəallarına qarşı zorakı hərəkətlərini pisləyibləр”. Bu barədə Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisi, “Beynəlxalq Şəffaflıq”, Hüquqların Sərhədsiz Müdafiəsi, Hüququn İnkişafı və Müdafiəsi Fondu və Demokratiyanın İnkişafı Fondu tərəfindən imzalanmış birgə bəyanatda deyilir: “Onların fikrincə, mayın 27-də keçirilən aksiyalar zamanı polisin hərəkətləri iştirakçıların kütləvi saxlanılması, bəzilərinə qarşı zorakılıq və qanunsuz güc tətbiqi halları ilə müşayiət olunub. Təşkilatlar prokurorluq və istintaq komitəsindən hər bir faktla bağlı müstəqil və səmərəli araşdırma aparmağı, həmçinin qanunu pozan bütün polis əməkdaşlarını məsuliyyətə almağı tələb edirlər”.

Bildirilir ki, bu bəyanatda suveren dövlətin daxili işlərinə kobud müdaxilə var. Qeyd edilir ki, sıralarında sabiq hakimiyyət təmsilçilərinin, daşnakların və kilsənin cəmləşdiyi barışmaz müxalifətdən olan destruktiv qüvvələr tərəfindən sarsıdılmış Ermənistanda indi çətin vəziyyət yaranıb. İstər 2018-ci, istərsə də 2021-ci ildə seçkilərdə uduzan sabiqlər və daşnaklar kütləvi xalq dəstəyinin olmaması səbəbindən qanuni yolla hakimiyyətə qayıda bilməyəcəklərini başa düşürlər. Beləliklə, onlar Azərbaycanla sərhədin delimitasiyası və demarkasiyası prosesində əhalinin narazılığından istifadə edərək, iğtişaşlar törədirlər. Halbuki, delimitasiya və demarkasiya olmadan, təbii ki, Ermənistanda sülhdən, dinc inkişafdan və sabitlikdən söhbət gedə bilməz. Amma müxalifət bu prinsipdən çıxış edir: Ölkə üçün nə qədər pisdirsə, legitim hakimiyyəti devirmək şansı da bir o qədər yüksəkdir. Beləliklə, onlar qiyam qaldırırlar və iğtişaş salırlar. Mayın 27-si də burada istisna deyil.

Müəllif Tevos Arşakyanın yazdığı kimi, Qərb QHT-ləri hakimiyyətin hərəkətlərini pisləyərkən, nədənsə qeyd etməyi unudurlar ki, etirazçılar arasında kütləni asayiş qüvvələrinə qarşı aqressiv hərəkətlərə təhrik edən çox sayda təxribatçı olub. Buna görə də, polis güc yoluna əl atıb. Amma erməni polisinin peşəkarlığı sayəsində müxalifətin genişmiqyaslı təxribatının qarşısını almaq mümkün olub. Əgər bu, Sarkisyanın, hətta Koçaryanın dövründə baş versəydi, hər şey daha pis olardı. Əminəm ki, Robik və Serjik öz başkəsənlərini tərəddüd etmədən meydana buraxar və onlara silahdan istifadəni, öldürücü gücün tətbiqini əmr edərdilər. İndiki hakimiyyət sadəcə olaraq, təxribatçıların dağıdılmasına göstəriş verib. Onların qollarını burublar, xüsusilə aqressiv olanları bir neçə dəfə dəyənəklə vurublar – Qərb QHT-lərinin səs-küy saldığı “zorakılıq” budur.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** “XQ”yə açıqlamasında bildirdi ki, B.Qalstanyanın arxasınca az adam getmir. Bunu etiraf etmək lazımdır. Ancaq keşiş, onu dəstəkləyən kilsə və bütövlükdə, revanşistlər hakimiyyəti devirmək üçün kifayət qədər tərəfdar toplaya bilmirlər. Onların konkret proqramı da yoxdur: “Hətta, iş o yerə çatıb ki, xarizmatik lider də tapa bilmirlər. Belə bir vəziyyətdə Baqratın özünün baş nazir vəzifəsinə namizədliyi irəli sürülür. Bu isə gülünc durumdur”.

Politoloq qeyd etdi ki, Ermənistanda hakimiyyətdən narazı dairələr olsalar da, Paşinyan iqtidarını belə asanlıqla devirmək mümkün olmayacaq. Ancaq bunu da qəbul etmək lazımdır ki, Baqrat və tərəfdarları ölkədə sabitliyi pozur, daxili vəziyyəti gərginləşdirirlər. Bu isə özlüyündə hakimiyyətin fəaliyyətinə çətinlik törədən amillərdəndir.

***Səxavət HƏMİD***
***XQ***

# Regional təhlükəsizlik Azərbaycan multilateralizmi kontekstində

II MƏQALƏ

## Multilaterallığın Heydər Əliyev mərhələsi



Asiya–Sakit okean regionunda multilaterallığın gözlənilən effekti verməməsinin regiondaxili və xarici səbəblərinin izahı multilateralllağın Azərbaycan təcrübəsinin əsas üstünlüklərini anlamağa əlavə imkan yaradır. Yelena Koldunova "RSMD" (Beynəlxalq İşlər üzrə Rusiya Şurası) üçün yazdığı məqalədə İndoneziya, Tailand və Kambocanın planlarını sinxron baş verən iki münaqişənin pozduğunu xüsusi vurğulayır. Həmin münaqişələri hər üç dövlət Cənubi-Şərqi Asiya üçün daha çox birbaşa təsir edən və regiona konkret aidiyyəti olan proses olaraq deyil, "fon hadisə" kimi qiymətləndirirdilər. Təcrübə göstərdi ki, bu, strateji səhvdir. Əgər həmin dövrdə regional təşkilatlara rəhbərlik edən bu 3 dövlət (İndoneziya, Tailand və Kamboca) coğrafi olaraq uzaqda olan münaqişə proseslərini düzgün qiymətləndirsəydilər, indiki durum yaranmazdı. Bu, nəzəri qənaət, eyni zamanda, praktiki faktlar əsasında çıxarılan nəticədir.

Heydər Əliyev isə qanlı-qadalı XX əsrin 90-cı illərində tamamilə fərqli proqnozlar əsasında fəaliyyət göstərdi. O, Cənubi Qafqazın geosiyasətinə regional və qlobal miqyaslardakı proseslərin qarşılıqlı əlaqəsində yanaşdı. Buna görə idi ki, Ulu öndər BMT-nin tribunasından 1994–1995-ci illərdə etdiyi çıxışlarda yalnız Cənubi Qafqazdakı münaqişədən deyil, ümumiyyətlə, dünyadakı münaqişələrdən bəhs edirdi. Onları Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqəli şəkildə izah edirdi. BMT-nin 50 illik yubileyi münasibəti ilə təşkil edilmiş xüsusi sessiyada Heydər Əliyev Azərbaycan multilaterallığının geosiyasi və siyasi aspektlərini konkret tezislərlə aydın ifadə etmişdir.

Onların məzmunu belədir: hər hansı regionda münaqişənin həllinə müasir dünyanın maraqları çərçivəsində ədalət və hüquq əsasında yanaşmaq lazımdır. Bu prosesdə dünyanın böyük dövlətləri hər hansı tərəfi deyil, reallığı, tarixi, ədaləti və hüququ tutmalıdır. Buna görə də həm BMT TŞ mövqeyini dəyişməlidir, həm də böyük dövlətlər, ümumiyyətlə, münaqişəli vəziyyətlərin ədalətli həllinə çalışmalıdırlar. Ona nail olmaq üçün isə BMT TŞ-də islahatlar aparılmalıdır. Bunların fonunda Azərbaycan hüquqi və demokratik dövlət qurmaqda davam edəcək.

Bu ümumi prinsiplər həmin mərhələ üçün möhtəşəm perspektivli və ədalətli idilər. Faktiki olaraq ilk dəfə çoxtərəfli beynəlxalq münasibətlərin qurulmasına (multilaterallığa) Azərbaycanın hansı məzmun verməsinin dünya miqyasında ilk təqdimatı idi. Maraqlısı və əhəmiyyətlisi ondan ibarətdir ki, Heydər Əliyev bunu yalnız ideya kimi demirdi. O, "Əsrin müqaviləsi" kimi möhtəşəm bir layihəni imzalamış və Ermənistanın təcavüzünü dayandıraraq atəşkəsə nail omuş lider kimi ifadə edirdi. Yəni Heydər Əliyev konkret arqumentlərlə Azərbaycanın mövqeyini dünyaya bəyan edirdi.

Deməli, Heydər Əliyev nəinki dünyanın istənilən regionunda münaqişəni nəzərə almışdır, hətta, elə bir mövqe ortaya qoymuşdur ki, bütün münaqişələri həll etməyin ədalətli və hüquqi yolunu göstərmişdir. Məhz bu reallıq prizmasından baxanda İndoneziya, Tailand və Kambocanın coğrafi olaraq uzaq olan münaqişələri nəzərə almamaları həlledici strateji səhv idi. Konkret olaraq, Asiya multilateralizminin reallaşmasına ciddi mənfi təsir edən münaqişələr – Rusiya–Ukrayna və ABŞ–Çin ixtilaflarının kəskinləşməsi idi. Bunların fonunda Rusiya, ABŞ, Aİ, Cənubi Koreya və Sinqapurun daxil olduğu müxtəlif münaqişəli vəziyyətləri də nəzərə almaq lazımdır. O cümlədən, Nensi Pelosinin 2022-ci ildə ABŞ–Çin münasibətlərini kəskinləşdirən Tayvan səfərini vurğulmaq gərəkdir.

Nəhayət, Asiya multilateralizminin uğursuzluğunu regiondaxili ziddiyyətlə izah edirlər. Konkret olaraq, 2021-ci ildə Myanmada hakimiyyətin hərbçilərin əlinə keçməsini fakt kimi göstərirlər. Bu proses regionda anti-müsəlman dalğaların yaranması ilə müşayiət olundu. Müsəlmanlara qarşı Myanmada böyük haqsızlıq edildi, onlar faktiki olaraq soyqırımına uğradılar. Bu da bütün regiona təsir etdi. Həmin prosesin qarşısını regionun böyük dövlətləri ala bilmədilər.

Bununla aydın olur ki, xarici siyasətdə real multilaterallığa (yəni hər kəsin qazana bildiyi bərabərhüquqlu çoxtərəfli əməkdaşlığa) nail olmağın mühüm şərtləri sırasında bizim "daxili multilaterallıq" adlandırdığımız faktor və region dövlətlərindən hansınınsa təşəbbüsü ələ alması ciddi rol oynayır.

Bunun nümunəsini məhz Heydər Əliyev göstərdi. "Əsrin müqaviləsi", milli ideya və multikulturalizm fonunda Ulu öndər fəal şəkildə regional siyasət yeritdi. Bütün maneələrə baxmayaraq Gürcüstanı enerji strategiyasının mühüm üzvlərindən birinə çevirdi. Rusiya ilə gərgin diplomatik mübarizədə əməkdaşlığa nail oldu. Təkcə ATƏT-in İstanbul Sammiti (1999-cu il) və ondan sonrakı dövrdə Rusiya rəhbərliyi ilə fəal diplomatik əlaqələri xatırlamaq kifayətdir. Məhz Heydər Əliyev Rusiyanın o dövrdəki rəhbərliyini israrla Azərbaycana dəvət edərək möhtəşəm "U dönüşü" etdi – münasibətləri dərin neqativdən pozitivə keçirdi.

Türkiyə ilə "Bir millət, iki dövlət" kəlamının ədalət, beynəlxalq hüquq və müstəqilliyin təmini kontekstində münasibətlərin inkişaf etməsi üçün çox vacib addımlar atdı. İranla münasibətləri uzun sürən inersiyadan çıxardı. Avropa və ABŞ ilə münasibətləri müsbət bir məcraya yönəltdi və onu konkret layihələrlə möhkəmlətdi. Uzaq Çinlə qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoydu. Yaponiya və Cənubi Koreya istiqamətində mühüm əməkdaşlıq addımları atdı.

Mərkəzi Asiya, Ukrayna, Belarus və Moldova ilə perspektivi olan münasibətlər qurdu. İslam ölkələri ilə əlaqələri faydalı istiqamətə yönəltdi. Paralel olaraq, Azərbaycanın beynəlxalq təşkilatlarda fəaliyyətini genişləndirdi və daha aktiv etdi. Bütün bunlar iki dəyişikliyə səbəb oldu.

Birincisi, müstəqil dövlət kimi Azərbaycana münasibət yeniləşdi. İkincisi, Cənubi Qafqaza region kimi fərqli yanaşmaların zəruriliyini ortaya qoydu. Əlbəttə, ilk mərhələdə hər iki istiqamət üzrə alınan nəticələr tədricən təsirini göstərməli idi. Lakin artıq 2000-ci ilə Azərbaycan müstəqil dövlət olaraq sözünü deyən və regional sabitliyi təmin edən başlıca güc kimi qəbul olunmağa başlamışdı.

Şübhə yoxdur ki, belə bir dönüşün yaranması əsasında Azərbaycanın çoxtərəfli beynəlxalq münasibətlərə düzgün taktiki və strateji proqramlarla yanaşması dayanır. Burada üzvi surətdə regional əməkdaşlıq və təhlükəsizlik sintez olunmuşdur. Bunların sayəsində Azərbaycan sülhə də nail olmağı planlamışdı.

Digər tərəfdən, faktların yuxarıdakı təhlili də göstərir ki, Azərbaycan rəhbərliyi milli, regional və qlobal miqyasları bir-biri ilə uyğunlaşdırmağı konkret layihələr bazasında bacarmışdır. Deməli, buradan Azərbaycan multilateralizminin çox vacib bir özəlliyini aydınlaşdırmaq olar. Həmin özəllik Azərbaycanın potensialında olan iqtisadi, energetik və sosial imkanları dövrün tələblərinə uyğun aktuallaşdırmaqla siyasi-diplomatik və geosiyasi aspektlərdə konkret nəticələrə nail olmaqla əlaqəlidir. Azərbaycan rəhbərliyi çox geniş kontekstdə real sosial, iqtisadi və energetik faktorları çoxtərəfli beynəlxalq münasibətlərdə hər kəsə fayda verə biləcək bir istiqamətə yönəltməyi yüksək səviyyədə bacarmışdır. Bu da Azərbaycan rəhbərliyinin həm sözünə əməl edən, həm də hər kəs üçün faydalı olan əməkdaşlıq platformalarının təşəbbüskarı olan liderliyə malik olmasının nümayişidir. Düşünürük ki, müasir dövrdə real multilaterallığın ana xəttini məhz bu məqam təşkil edir.

## Yeni mərhələyə transformasiya

Araşdırmalarda multilaterallığın dinamizminə, yəni dəyişən situasiyada onun da məzmununda yeniliklərin olmasına az diqqət yetirilir. Əslində, uğurlu siyasətdə bu məqam əhəmiyyət daşıyır. Hər kəs etiraf edir ki, müasir mərhələdə geosiyasi dinamika yüksəkdir və gözlənilməz hadisələr çox baş verir. Belə bir şəraitdə, təbii ki, çoxtərəfli beynəlxalq əlaqələrin məzmunu statik (yəni dəyişməz, bütün mərhələlər üçün eyni məzmunda) ola bilməz. Çevik bir mexanizmlə multilaterallıq da yeniləşməli və bu zaman daim müstəqil dövlətin strateji hədəfinə uyğun məzmun çaları ilə zənginləşməlidir.

Azərbaycan XXI əsrə multilaterallığı yaradıcı yeniləşdirmə potensialı ilə qədəm qoydu. Onun təməlində Ulu öndərin müəyyən etdiyi və yuxarıda vurğuladığımız üç baza prinsip mövcudluğunu saxlamaqla yeni çalarlar müəyyən edildi. Multilaterallıq kontekstində onlar hansılar idi?

Multilaterallığın "Əsrin müqaviləsi" ilə bağlı aspektinin təkamülünü Prezident İlham Əliyev 2022-ci il sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində keçirilən 48-ci Beynəlxalq Çernobbio Forumunda "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda çıxışı zamanı dəqiq ifadə etmişdir. İlham Əliyev demişdi: "Bizim enerji strategiyamız mərhələlərə bölünüb. 1994-cü ildə müstəqilliyimizin bərpasından, sadəcə, üç il keçmişkən ilkin mərhələdə biz dünyanın aparıcı enerji şirkətlərini Xəzər dənizində çalışmağa dəvət edən ilk ölkə olduq. Tezliklə biz Avropa bazarına, əsasən də İtaliyaya neft ixrac edən ölkəyə çevrildik".

Bu mərhələ bütövlükdə Heydər Əliyevin rəhbərlik etdiyi dövrə düşür. Multilaterallıq bu kontekstdə iki mühüm faktora əsaslanırdı.

Birincisi, dünyanın aparıcı enerji şirkətləri Xəzər dənizində çalışmağa dəvət edilmişdi (13 böyük şirkət müqaviləni imzalamışdır).

İkincisi, onların fəaliyyətinə güclü təminat verildi və həmin əsasda neftin ixracı məsələsi qətiləşdi.

Bütün bunların nəticəsində Çıraq yatağında neft hasilatına 1997-ci ildə başlanıldı. 1999-cu ilin dekabrında isə neftlə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. İlk gəlir Ulu öndər tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil edildi. Onu deyək ki, neft ixracı yalnız Qərb istiqamətində həyata keçirilmirdi. Hələ 1997-ci ildə Bakı–Novorossiysk neft kəməri vasitəsilə ixraca başlanmışdı. 2007-ci ilin sonunadək bu marşrutla milyon tonlarla neft ixrac olundu. Eyni zamanda, 1999-cu ildə Bakı–Supsa neft boru kəməri işə salındı. Həmin istiqamətdə də 2007-ci ilə kimi milyon tonlarla neft ixrac olundu.

1999-cu ilin noyabrında başqa bir tarixi hadisə baş vermişdir. İstanbulda ATƏT-in Sammiti keçirilmişdir. Orada ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri Bakı–Tbilisi–Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalamışlar. Nəhayət, 2002-ci ildə Ulu öndərin də iştirakı ilə bu marşrutun təməl daşı qoyulmuşdur.

Bunlar 1994-cü ildə imzalanan "əsrin müqaviləsi"nin "yol xəritəsinin" bir qismidir. Və həmin qismdə multilaterallıq kontekstində enerji strategiyasının ilk mərhələsi reallaşmışdır. 1997-ci ildən başlayaraq 1999-cu ilə qədər epoxal əhəmiyyətə malik işlər görülmüşdür. Həmin işlər birbaşa Azərbaycanın eneji resurslarının etibarlı şəkildə müxtəlif istiqamətlərdə dünyaya çıxarılmasına aid idi. Eyni zamanda, prosesin gedişi göstərir ki, faktiki olaraq enerji strategiyasının ilkin mərhələsi həm də multilaterallığın birinci mərhələsinə uyğun gəlir. Yəni çox qısa müddətdə Şimal və Qərb istiqamətində bir neçə xətt üzrə enerji ixracına Azərbaycan rəhbərliyi dəqiq həyata keçirilən özünəməxsus çoxtərəfli beynəlxalq əlaqələri həyata keçirməklə nail olmuşdur.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "Təlimatçılıq" məntiqi və Ermənistan üçün illüziya

**(əvvəli 1-ci səhifədə)**

Ümumən, kollektiv Qərbin erməni ordusunun modernləşməsində maraqlı olduğunu söyləyə bilərik. Ən maraqlı tərəf isə Fransadır. Hərçənd, Fransanın Ermənistandakı hərbi mövcudluq parametrinin ABŞ kimi olmadığını da bilirik. Yəni, Paris İrəvanı silah-sursatla təmin edir. Bu, öz yerində, amma hərbi məsləhətçilərlə təmsilçilik baxımından Birləşmiş Ştatların adı daha çox çəkilir. Ötən il və bu ilin əvvəlindəki mənzərə bunu deməyə əsas verir.

O da məlumdur ki, kollektiv Qərb Cənubi Qafqaz ölkələri arasında balans yaratmağa çalışır. Daha dəqiq desək, mövcud istiqamətdəki siyasətə balans-yaratma siyasəti deyilir. Əslində, bunu gizlətmirlər də. Hesab edilir ki, əgər balans yaransa, regionda təhlükəsizlik formalaşacaq. Yeri gəlmişkən, bu ifadə erməni və fransız rəsmilərinin dilindən də dəfələrlə səsləndirilib ki, yanaşmanın yolverilməzliyi şübhəsizdir, çünki daha çox instinktiv xarakter daşıyır. Təxminən belə: ölkələr bir-birindən qorxsunlar və hücum etmək barədə düşünməsinlər. Niyə hücum etməlidirlər? Sual açıq qalır. Əslində, Qərbin məkri də bu sualın açıq qalmasındadır.

Məsələ ondadır ki, hücum və ya eskalasiya mühiti problemlərin mövcudluğu təqdirində yaranır. Deməli, Qərbin yanaşması problemlərin həlli yox, gərginliyin saxlanılması motivinə söykənir. Klassik deyimdəki kimi, "Parçala – hökm sür!". Yəqin, imperializmin başlıca xüsusiyyəti barədə söz açdığımızın fərqinə vardınız. Elə isə bir qədər konkretləşdirək.

Bəli, otuz ildən artıq müddətdə Qarabağ münaqişəsi davam etdi. Yəni, necə var elə də saxlanıldı. Həllinə çalışılmadı. Nəticə etibarilə nə hərb, nə də sülh şəraiti hökm sürdü. Axırda nə oldu? 44 günlük müharibə. Müharibə həm də ona görə baş verdi ki, işğalçı Ermənistan həmin balanslaşdırma siyasətinə güvəndi. Ümumən, ölkə Qərbə inandı. İnandı ki, beynəlxalq aləm onun Qarabağı itirməsinə imkan verməyəcək. İnandı ki, Azərbaycana təzyiq göstəriləcək və ölkəmizin haqq yolunda irəliləməsinin qarşısı alınacaq. Amma tam əksi yaşandı.

Əlqərəz, bu gün də Qərb Cənubi Qafqazda balanslaşdırma siyasəti yürütmək niyyətindədir. Ona görə də ABŞ-nin Ermənistan ordusuna təlimatçılar göndərdiyinə dair məlumatlar dolaşmaqdadır. Hər halda, necə deyərlər, od olmasa, tüstü çıxmaz. Əlbəttə, ilk baxışdan, düşünülə bilər ki, hərbi əməkdaşlıq qurmaq rəsmi İrəvanın suveren hüququdur. Ancaq burada regionun həssaslıq amili nəzərə alınmalıdır. O cümlədən, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın mövqeyi. İndiki durumda Birləşmiş Ştatların, yaxud digər Qərb ölkəsinin Ermənistanla münasibətlər sistemində Bakının maraq və mənafelərinə zidd nələrinsə həyata keçirməməyə diqqət yetirməsi vacibdir.

İkincisi, nəzərə alınmalıdır ki, Cənubi Qafqaz həssas nöqtədir. Burada etibarlı sülh mühiti formalaşmayınca, regionda hansısa hərbi üstünlük qazandıran addımlardan çəkinilməlidir. Prinsipial baxış bu olmalıdır. Eyni zamanda, otuz illik işğal amili nəzərə alınmalıdır. Düşünülməlidir ki, işğalı doğuran həmin o balans siyasəti idi. Üstəlik, bilavasitə erməni faktorunun üzərində dayanmaq labüddür. Daha doğrusu, bu faktorun dağıdıcılığı, anti-sülh və sabitliyə zidd təbiəti.



Ermənistan mənəvi baxımdan reabilitasiya olunmalıdır. Ona inam və etimad yaranmalıdır. Qərb onu da nəzərə almalıdır ki, məhz Ermənistan otuz ilə yaxın müddətdə dünyanın maraqlı olduğu Cənubi Qafqaz bölgəsində inkişafı əngəlləyən amil kimi çıxış edib. Məsələyə belə yanaşma yoxdursa, deməli, sülh və əminamanlıq mühiti ilə bağlı deyilən fikirlər ucuz populizmdən, gözdən pərdə asmaqdan və sabun köpüyündən başqa bir şey deyil. Axı sülh mühitinə, əmin-amanlıq şəraitinə konseptual yanaşma şərtdir.

Digər tərəfdən, "Intelligence Online" saytının məlumatında iki başlıca məqam var. Bunlardan birincisi, hərbi təlimatçılar göndərmək istəyinin ölkələrin özlərindən qaynaqlandığının vurğulanmasıdır. Yəni, guya, ABŞ deyil, Ukrayna, Balkan ölkələri, Moldova və Ermənistan maraqlıdır ki, Birləşmiş Ştatların hərbi təlimatçı və məsləhətçiləri onların ordularını modernləşdirsinlər. Aydındır ki, bu, tam cəfəng məntiqdir və təşəbbüskar ikincilər deyil, məhz Vaşinqtondur.

ABŞ-nin Ukrayna, Moldova və Ermənistan ordusu üçün hərbi məsləhətçilər göndərməsinin birinci üçün vacibliyini sübuta yetirən başqa məqamlar da var. Məsələn, Ukrayna ilə bağlı hər şey aydındır. Ölkə Qərbin Rusiyaya qarşı müharibəsinə cəlb edilən tərəfdir və durumun yaratdığı ziyanı hər cəhətdən üzərində daşıyır. Bilmək olmur ki, Kiyev bunun qarşılığında nə alacaq? Hələlik aldığı dağıdılmış şəhərlər, viran qalmış kəndlərdir. Böyük insan tələfatı isə öz yerində.

Moldovanın da son zamanlar anti-Rusiya ovqatına kökləndiyini vurğulamaq mümkündür. Əlbəttə, Ukraynada olduğu kimi, Moldovada da Rusiyanın dəstəklədiyi separatçı rejimlər var və bu status-kvonun saxlanılması yolverilməzdir. Ancaq separatizmi aradan qaldırmaq üçün vasitə Qərbin oyunlarında iştirak deyil. Əgər, belə bir yol məqbul sayılsa idi, Gürcüstan öz ərazisində Moskvanın tam dəstək verdiyi iki separatçı quruluşun aradan qaldırılmasına girişərdi. Girişmir, ona görə yox ki, gürcü iqtidarı durumu dəyişmək istəmir, o səbəbdən ki, bunun üçün zəruri olan alətlərin çatışmazlığını dərk edir. Özünün düzgün həmlə anını gözləyir və gözləməkdə haqlıdır. Yəni, sözümüz ondadır ki, Qərbin illüziyalarına, yalançı vədlərinə, dəstəklərinə, indiki halda hərbi məsləhətçilərinə aldanmaq lazım deyil. İşə münasibət qıcıq yaratmaq kontekstində yox, fundamental, məqsədə çatmaq naminə olmalıdır.

"Intelligence Online" yazır ki, Ukrayna, Moldova və Ermənistan ordusu üçün hərbi məsləhətçilər göndərməkdə məqsəd adıçəkilən ölkələrin ordularını Amerika silahlı qüvvələri ilə uyğunlaşdırmaq və Rusiya modelindən uzaqlaşmaqdır. Özü də sayt bunu Vaşinqtonun istəyi kimi təqdim edir. Çox güman, təzadı hiss etdiniz. Ölkələrin xahişi hara, ABŞ-nin istəyi hara? Məlumdur ki, söhbət heç də Kiyevin, Kişeneunun və İrəvanın nə istəməsindən getmir. Məsələ, belə demək mümkünsə, onlar üçün yazılmış ssenarinin icrasındadır.

Nəhayət, gələk xoruzun quyruğuna. "Intelligence Online" onu da yazır ki, ABŞ sözügedən dəstəyi ilə Moskvanın orbitini tərk etmək istəyən ölkələrin müdafiə nazirlikləri üçün məsuliyyəti öz üzərinə götürür. Məsuliyyətdən söz düşmüşkən, yenidən Rusiya ilə müharibə fonunda Ukrayna ətrafında baş verən proseslərə diqqət yetirək. Kimsə Kiyevin düşdüyü duruma görə məsuliyyət daşımaq istəyirmi? Qərbdə hansısa qüvvə tam səmimi şəkildə əlini daşın altına qoyubmu və ya qoyurmu? Əlbəttə ki, yox!

***Ə.RÜSTƏMOV***
***XQ***

**1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür**

# Uşaqlığın erkən çağı – hər kəsdən istəyir qayğı





**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “Erkən uşaqlıq dövrünün inkişafı – koordinasiyalı fəaliyyət” mövzusunda konfrans keçirilib.**

Komitə sədri Bahar Muradova qeyd edib ki, ökəmizdə uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Erkən uşaqlıq dövrünün yeni nəslin inkişafının vacib komponenti olduğunu vurğulayan komitə sədri əlavə edib ki, “Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası” və ondan irəli gələn 2020–2025-ci illər üçün Fəaliyyət Planında da bu məsələ ilə bağlı önəmli hədəflər müəyyən edilib.

“Lazımi bütün bacarıqlara erkən yaşlarından ailəsində yiyələnmiş uşaq ölkəsinin də inkişafında bir vətəndaş olaraq vacib rol oynaya bilər” – deyən Bahar Muradova bildirib ki, erkən uşaqlıq dövründə inkişaf dayanıqlı inkişaf üzrə qlobal 2030-cu il gündəliyinə daxil olmaqla, XXI əsrin beynəlxalq prioritetlərindən biri kimi müəyyən edilib.

Komitə sədri uşaqların tərbiyəsi istiqamətində keyfiyyətli tibb xidməti, inklüziv təhsilin imkanlarından da danışıb. O, Azərbaycanla Türkiyə arasında erkən uşaqlıq dövrünün inkişafı istiqamətində birgə əməkdaşlıq barədə fikirlərini bildirib: “Bu baxımdan komitə ilə Türkiyənin müvafiq qurumu arasında imzalanmış memorandum çərçivəsində sağlam ailə mühitinin və ailə institutunun gücləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində birgə çoxsaylı tədbirlər həyata keçirilir”.

B. Muradova sonda Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bütün türk dünyası uşaqlarını təbrik edib, onlara xoşbəxtlik, sağlam və təhlükəsiz həyat, rifah və səadət arzulayıb.

Səhiyyə nazirinin müavini İlqar Qasımov Azərbaycanın gələcəyi olan uşaqlara diqqət və qayğının artırılması məqsədilə 2009-cu ilin “Uşaq İli” elan edilməsinə diqqət çəkib. İ.Qasımov vurğulayıb ki, ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın məqsədlərindən biri də vətəndaşların sağlam həyat tərzinin təmin edilməsidir.

Erkən uşaqlıq dövrünün insanın sonrakı yaş mərhələlərində qazandığı uğurun təməlində dayandığını vurğulayan Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Mehriban Vəliyeva, eyni zamanda, bu dövrün uşaqların sosial-emosional və idraki sağlamlığı üçün də vacib olduğunu diqqətə çatdırıb.

Erkən uşaqlıq dövründə inkişafla bağlı təlim çərçivəsində Türkiyədən dəvət edilən nümayəndə heyətinin rəhbəri Metin Sabancı Xüsusi Təhsil və Reabilitasiya Mərkəzinin müdiri, fizioterapevt Turqay Arık çıxışlarında qardaş ölkədə olmaqdan məmnunluqlarını ifadə edib, həmçinin ölkəmizdə fəaliyyət göstərən bir qrup uşaq mütəxəssisləri üçün keçirilən 3 günlük təlimin maraqlı və yaddaqalan olduğunu bildiriblər.

Təhsil və Reabilitasiya Mərkəzinin fəaliyyəti barədə qısa təqdimat nümayiş etdirildikdən sonra UNICEF-in Azərbaycan Nümayəndəsinin müavini səlahiyyətlərini icra edən Leyla Həsənova erkən yaş dövründə əldə edilmiş bacarıqların uşaqların gələcək təhsili və uğurlu fəaliyyəti üçün təməl yaratdığını vurğulayıb.

Komitənin ailə məsələləri şöbəsinin əməkdaşı Səmra Əliyeva Erkən Uşaqlıq Dövrünün İnkişafı – EUDİ.az portalının 11 aylıq fəaliyyətini əks etdirən qısa icmalla çıxış edib.

Məclis “Erkən uşaqlıq dövründə uşaqların sağlam böyüməsi, erkən müdaxilə və psixo-emosional sağlamlığı”, “Erkən uşaqlıq dövründə uşaqların sosial inkişafı”, “Erkən uşaqlıq dövründə uşaqların təhsili, tərbiyəsi və inkişafı” mövzularında panel müzakirələrlə davam edib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

**...Həmişəlik yaşamaq üçün köçüb gəlmisiniz ilk dəfə gördüyün bir yerə. Bəzəkli açar, bir də üstündə “Xocalı, 2024” yazılmış çəhrayı tonlu kağız çanta veriblər sənə. Yəqin, hələlik səbəbini bilmədən, böyüklərə baxıb sən də sevinirsən, balaca Rüqəyya. Bilmirsən ki, əlində tutduğun açar illərlə yurd həsrəti ilə qovrulmuş yüz minlərlə əmilərin, dayıların, xalaların, baba-nənələrin gerçəkləşən arzularının timsalıdır. Bu açar təkcə sənin deyil, bütün xocalıların bərpa edilmiş hüquqlarının, müqəddəs şəhidlərimizin döyüş meydanında alınmış qisasının, tarixi ədalətin rəmzidir.**

# Xocalıda göyərən fidan



Yəqin, doğmalarının əhatəsində, rahat avtomobildə qayıtdığın Xocalı yolu ilə bir şaxtalı fevral gecəsində yaşıdlarının əli-ayağı yalın, ölüm kabusu altında gülləyə tutulmasından, sağ qalanların erməni cəlladlarından canlarını necə qurtardığından da xəbərin yoxdur. Böyüyəndə sən Xocalına qayıda, ətirli güllərin arasında qayğısızcasına oynaya biləsən deyə, neçə-neçə əmi-dayıların canını düşmən gülləsinə sipər etdiyini də biləcəksən.

Bu gün 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü, yəni sənin və yaşıdlarının bayramıdır, Rüqəyya! Azad və abad Xocalının ilk sakinlərindən biri, canlı fidanımız! Bu gün, sözün hər mənasında, sənin günündür! Gözəlləşən, cənnətə çevrilən Xocalıdakı yeni evinizdə xoşbəxt yaşa! Adınla böyü, yüksəl, Azərbaycanımızın layiqli övladlarının sırasında yerini tut!

Xocalıda ilk bayramın mübarək, Rüqəyya Azad qızı!

***Mahir RƏSULOĞLU***
***Xocalı***

# Ədliyyə naziri Türkiyədə



**Ədliyyə naziri Fərid Əhmədov türkiyəli həmkarı Yılmaz Tunçun dəvəti ilə qardaş ölkədə səfərdə olub.**

Nazirlərin görüşündə ədliyyə sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, ölkələrimiz arasında hüquqi istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Sonda iki ölkənin ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair birgə bəyanat imzalanıb.

Fərid Əhmədov səfər çərçivəsində Türkiyə Cəza və Həbs Evləri Baş İdarəsini ziyarət edib, qurumun fəaliyyəti ilə, eləcə də cəzaçəkmə müəssisələrində İKT-nın tətbiqi ilə yaradılan imkanlarla tanış olub. Bundan əlavə, Türkiyə Ədliyyə Akademiyasında və Türkiyə Ədliyyə Nazirliyinin İnformasiya Texnologiyaları Baş İdarəsində görüşlər keçirilib.

**XQ**

# Laçına daha 20 ailə qayıdıb



**Bu gün növbəti köç karvanı ilə Laçın şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub. Daha 20 ailə dogma torpağına qayıdıb.**

Açarların təqdim edilməsi mərasimində Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Bununla da Laçın şəhərində 513 ailənin, yəni 1906 nəfərin daimi məskunlaşması təmin olunub.

**XQ**

# Təhsil İşçiləri Həmkarlar İttifaqının hesabat-seçki konfransı

**Dünən Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin XVIII hesabat-seçki konfransı keçirilib.**



Gündəliyə komitənin 2017–2024-cü illərdə gördüyü işlərin hesabatı, Təftiş komissiyasının hesabatı, Məclisin yeni tərkibinin seçilməsi, Təftiş komissiyasının yeni tərkibinin seçilməsi, Azərbaycan Prezidentinə müraciətin qəbulu və təşkilati məsələ daxil edilib.

Məclisdə ATİAHİ RK-nın sədri Səttar Möhbalıyev qurumun ötən illərdəki fəaliyyəti barədə hesabatı dinlənilib. Müzakirələrdən sonra komitənin fəaliyyəti qənaətbəxş hesab olunub.

Konfransda Səttar Möhbalıyev açıq səsvermə yolu ilə yenidən ATİAHİ RK-nın sədri seçilib.

**Qabil ƏLİYEV**
**XQ**

# Heydər Əliyev Mərkəzində çinli rəssamın “Təbəssüm bağı”




**İyunun 7-də Heydər Əliyev Mərkəzində tanınmış çinli rəssam Yüe Mincünün “Təbəssüm bağı” adlı fərdi sərgisi açılacaq.**

Sərgidə rəssamın “Avtoportret” və “Güllər” silsilələrinə aid əsərləri – rəsm və heykəltaraşlıq nümunəsi təqdim olunacaq.

Müasir Çin incəsənətinin tanınmış nümayəndəsi olan Yüe Mincünün “Avtoportret” silsiləsindən olan əsərləri dünya incəsənətində əks-səda yaradıb. Həmin silsilədə yaradılan obrazların hamısında geniş təbəssümlü insanlar təsvir olunub. Bəziləri həmin təbəssümü “istehza gülüşü” adlandırır, digərləri isə onun dramatik və kədərli olduğu qənaətindədir. İstənilən halda, həmin obrazlardakı təbəssümlər dərhal yaddaşlara həkk olunur.

Rəssamın digər məşhur silsiləsi “Güllər”dir. Həmin əsərlərdə COVID-19 pandemiyasının səbəb olduğu məhdudiyyətlərin yaratdığı fəsadlar rəssamın təxəyyülünə uyğun əks olunur. Belə ki, bu incəsənət nümunələrindəki obrazların üzünü tibbi maska deyil, güllər bağlayır.

Sərgi oktyabrın 27-dək davam edəcək.

**XQ**

# UNESCO-da COP29 müzakirəsi

**UNESCO-nun mənzil-qərargahında Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr edilmiş “Təhsil vasitəsilə insanları və planeti birləşdirək” adlı tədbir keçirilib.**



Tədbirdə diqqəti cəlb edən məqam Gənclərin İqlim Hərəkatının (YOUNGO) təmsilçisi Sahana Kaurun moderatorluğu ilə keçirilən nəsillərarası panel müzakirələri olub. Bu sessiyada məktəblərdə və icmalarda ekoloji maarifləndirmənin artırılması, davamlı inkişaf üçün ömür boyu təhsilin həyata keçirilməsi və gələcək çağırışlara hazırlıq strategiyaları, eləcə də COP29-a dair fikir mübadiləsi aparılıb. Paneldə Cənubi Afrikanın iqlim komissiyasının təmsilçisi, Şimali Amerika Gənc Su Parlamentinin Həmtəsisçisi, Hondurasın təhsil naziri, Yer (Earth) Uşaqları İnstitutunun rəhbəri və Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev çıxış ediblər.

Elman Abdullayev bu ilin sonunda Bakının ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu qlobal konfransından (COP29) söz açıb və bu qlobal danışıqlarda gənclərin mühüm rolunu vurğulayıb.

**XQ**

# Özəl bölmə maliyyə əlçatanlığından güc alır

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) son bir ildə biznes mühitinin yaxşılaşdırılması, bu sektorda qanunvericiliyin və biznesə dövlət xidmətlərinin təkmilləşdirilməsi prosesində fəal iştirak edib, yeni kiçik və orta biznes (KOB) subyektlərinin yaradılmasına və mövcud KOB-ların inkişafına, sahibkarların qanuni maraqlarının müdafiəsinə, satış bazarlarına, bilik və innovasiyalara, maliyyə resurslarına çıxışına dəstəyi gerçəkləşdirib.**




KOBİA-dan redaksiyamıza verilən məlumata əsasən, agentlik tərəfindən hazırda da biznesə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək istəyən biznes subyektlərinə müxtəlif dəstək və xidmətlər göstərilir. Bu dəstək və xidmətlər biznesin müxtəlif mərhələlərini əhatə edir.

Ötən il Prezident İlham Əliyevin iştirakı ilə açılışı reallaşan "Bakı KOB evi"nin fəaliyyətə başlaması nəticəsində biznesə vahid məkanda xidmət mərkəzi olan "KOB evləri"nin sayı 3-ə çatıb. Hazırda Bakı, Yevlax və Xaçmaz şəhərlərində olmaqla ölkə üzrə 3 "KOB evi" fəaliyyət göstərir. Həmin mərkəzlərdə 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlara 300-dən çox adda xidmət təqdim olunur.

"KOB evləri"nin əsas məqsədi sahibkarlara operativ, şəffaf, məsuliyyət və rahatlıq prinsipləri əsasında dövlət və özəl qurumların xidmətlərinin vahid məkanda təqdim edilməsidir. Yeri gəlmişkən, "KOB evləri"nin xidmətlərindən yararlanan sahibkarların sayı getdikcə artır. Belə ki, 2023-cü ildə 371 mindən çox, cari ilin I rübündə isə 99 mindən çox sahibkara KOB evlərində xidmət göstərilib. Xidmətlərdən məmnunluq səviyyəsi isə 98 faizə yüksəlib. Ölkənin digər şəhər və rayonlarında, o cümlədən işğaldan azad olunmuş bölgələrimizdə "KOB evləri"nin yaradılması nəzərdə tutulur və bu istiqamətdə zəruri tədbirlər görülür.

Ötən il KOB-ların təhsil, elm-tədqiqat və digər layihələrinin maliyyələşdirilməsinə 550 min manatdan çox qrant vəsaiti verilib. Ümumilikdə isə indiyədək bu məqsədlə 58 layihəyə 1 milyon manatdan çox qrant vəsaiti ayrılıb.

Bütün bunlarla yanaşı, keçən il 42, ümumilikdə isə bugünədək 145 mikro və kiçik sahibkara innovasiya fəaliyyəti üzrə əldə etdikləri gəlirlərə 3 il müddətinə vergi güzəştlərini nəzərdə tutan "Startap" şəhadətnaməsi verilib. Sahibkarlara vergi güzəştlərini nəzərdə tutan digər dəstək mexanizmi olan KOB klasterlərin yaradılması istiqamətində də işlər davam etdirilib.

Xatırladaq ki, qanunvericilikdə "KOB klaster" şirkəti və onun iştirakçısı üçün bir sıra vergi güzəştləri nəzərdə tutulur. Belə ki, adıçəkilən qurum müvafiq reyestrə daxil edildiyi tarixdən 7 il müddətinə mənfəət, "KOB klaster" fəaliyyətində istifadə olunan torpaqlara görə torpaq və əmlak vergisindən, texnoloji avadanlıqların və qurğuların idxalı üçün isə ƏDV-dən azad olunur.

"KOB klaster"in iştirakçısı olan şəxs 7 il müddətində "KOB klaster" şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal üzrə qazandığı mənfəət və ya gəlirin kapital xarakterli xərclərinin çəkilməsinə yönəldilən hissəsinin mənfəət və ya gəlir vergisindən azad olunur. "KOB klaster" üçün nəzərdə tutulan güzəştlərdən yararlanmaq istəyən kommersiya hüquqi şəxs "KOB klaster" şirkətinin şəhadətnaməsini almalıdır. Bunun üçün kommersiya hüquqi şəxs KOBİA-ya müraciət edə bilər.

KOB subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmasının aparılmasına dövlət dəstəyi KOBİA tərəfindən təmin edilir. Mikro sahibkarlıq subyektinin müraciəti əsasında reallaşdırılan hər bir daxili bazar araşdırmasına çəkilən xərcin 80 faizi, kiçik sahibkarlıq subyektinin müraciəti ilə həyata keçirilən araşdırmaya çəkilən xərcin isə 50 faizi dövlət tərəfindən ödənilir. Hər bir daxili bazar araşdırmasının aparılmasına görə ödənilən dəstək məbləği maksimum 20 min manatdır. İndiyədək sahibkarların müraciəti və KOBİA-nın təşəbbüsü ilə 50-dən çox daxili bazar araşdırması aparılıb.

Onu da qeyd edək ki, 2023-cü ildə 10 sərgi çərçivəsində 79 KOB subyektinin məhsullarının ödənişsiz olaraq sərgilənməsinə, agentlik tərəfindən ticarət şəbəkələrində yaradılmış 8 satış nöqtəsində 25-dən çox sahibkarlıq subyektinin məhsullarının satışına dəstək göstərilib.

Sahibkarların maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə KOBİA-nın ödənişsiz təlim və məsləhət xidmətlərindən 2023-cü ildə 14 minə yaxın KOB subyekti, startap və biznesə başlamaq istəyən şəxs yararlanıb. Kənd təsərrüfatı, istehsal, xidmət və s. üzrə 697 biznes planın hazırlanmasında KOB subyektlərinə dəstək göstərilib. Ötən il agentliyin ödənişsiz video təlimlərindən 424 sahibkar və biznesə başlamaq istəyən şəxs faydalanıb, 37 sahibkar və menecer beynəlxalq təcrübəyə yiyələnmək üçün Almaniyada ixtisasartırma kursu keçib. Bu ilin mart ayında Azərbaycan Texniki Universitetində fəaliyyətə başlamış "KOB Model Müəssisəsi"nin imkanlarından artıq 20-dən çox sahibkar faydalanıb.

Model müəssisə kiçik və orta sənaye müəssisələrinin səmərəli və rəqabətqabiliyyətli olmasına imkan verən, qənaətli idarəetmə üsullarına əsaslanan tədris və təcrübə mərkəzidir. Bu müəssisənin imkanlarından faydalanan KOB subyektlərinin mühəndisləri və texniki heyəti qənaət üsullarını təcrübə əsnasında öyrənir və bu metodları öz şirkətlərində tətbiq edirlər. Bu isə həm işçilərin, həm də şirkətin məhsuldarlığını və rəqabətqabiliyyətliliyini artırır.

Son bir ildə də KOB-lara yerində dəstək və xidmətləri təmin edən, dövlət-sahibkar əməkdaşlığına töhfə verən "KOB dostu" şəbəkəsinin genişlənməsi davam etdirilib. Sahibkarlara daha yaxın olmaq, onların müraciətlərinin yerində həllinə dəstək göstərmək üçün hazırda ölkənin 50-yə yaxın şəhər və rayonunda "KOB dostları" fəaliyyət göstərir.

Hazırda biznes üçün aktual məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərə investisiya yatırmaq və Qarabağ və Şərqi Zəngəzurda biznes qurmaqdır. Cari ilin yanvar-aprel aylarında bu istiqamətdə KOBİA-ya 1950-dən çox müraciət daxil olub. Onlardan 500-dən çoxu xarici müraciətdir. Ümumi müraciətlərin 980-dən çoxu investisiya layihəsidir ki, onun da 48 faizi ticarət və xidmət, 22 faizi sənaye, 22 faizi kənd təsərrüfatı, 8 faizi isə tikinti, turizm, səhiyyə, təhsil və mədəniyyət sahələrini əhatə edir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında öz biznesini quran sahibkarlar agentliyin müxtəlif dəstək və xidmətlərindən istifadə edirlər. Zəngilan rayonunun Ağalı kəndində yerləşən Dövlət Xidmətləri Mərkəzində KOBİA-nın kiçik və orta biznesla bağlı xidmətləri həyata keçirilir. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə "KOB dostu" ofisləri yerləşir. Bu, bölgədə biznesin qurulmasına və inkişafına dəstək məqsədilə KOBİA-nı sahibkara daha yaxın edir.

***Vaqif BAYRAMOV***
***XQ***



# Qarabağ yenidən cənnətə çevrilir

**Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə bərpa-quruculuq layihələri uğurla həyata keçirilir. Keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşdırılması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənir, yeni şəhərsalma prinsipləri nəzərə alınmaqla yaşayış və qeyri-yaşayış komplekslərinin inşası sürətlə reallaşdırılır. Bu prosesdə isə, əsasən, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının gerçəkləşdirilməsi önə çəkilir.**

Bölgədə iqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən, rəqabətli istehsal sahələrinin səmərəli fəaliyyəti müasir infrastrukturun qurulması ilə şərtləndirilir. Prioritet istiqamətlərdə sahibkarlara geniş çeşidli stimullar verilir, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə prinsipləri geniş tətbiq olunur, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılır.

Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpaolunan enerji mənbələrindən istifadə də diqqət mərkəzində saxlanılır, bu məsələdə "yaşıl enerji zonası" konsepsiyasına xüsusi əhəmiyyət verilir. Elə bunun nəticəsidir ki, Qarabağ və Şərqi Zəngəzurun ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda payı davamlı şəkildə artır. Bir sözlə, bu prioritetlər dövlət başçısının müvafiq göstərişləri və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində reallaşdırılır.

Bərpa-quruculuq layihələrinin icrasına başlanan vaxtdan indiyədək birinci və ikinci mərhələlər üzrə bir sıra genişmiqyaslı tədbirlər həyata keçirilib və bu, hazırda da intensiv davam etdirilir. Əsas məqsəd isə işğaldan azad olunan ərazilərdə yenidənqurma işlərinin qısa zamanda tamamlanması və soydaşlarımızın öz torpaqlarına geri dönüşü üzrə yüksək səviyyəli həyat tərzinin yaradılmasıdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Vətən müharibəsindən sonra genişmiqyaslı enerji layihələrinin icrasına başlanılıb, işğal dövründə dağıdılan kiçik su elektrik stansiyalarının bərpası ilə bərabər, ekoloji normalar daxilində yeniləri tikilib.

Yeri gəlmişkən, dövlət başçısının regionun dayanıqlı elektrik təchizatı infrastrukturunun yaradılması və hidroenerji ehtiyatlarından səmərəli istifadə istiqamətində tapşırıqlarına uyğun olaraq, regionun sərt, keçilməz iqlim və relyef şəraitinə rəğmən qısa bir müddətdə ümumi gücü 226 MVt olan 28 SES yenidən qurulub və ya yeni tikilib. Ümumi gücü 44 MVt olan 4 SES-də isə avadanlıqların quraşdırılması və sazlama işlərinə başlanılıb. Nəticədə bütün region üzrə dayanıqlı elektrik təchizatı sxemi yaradılıb və "Yaşıl dünya naminə həmrəylik ili" elan edilən 2024-cü ilin birinci yarısında ümumi gücü 270 MVt olan 32 SES-in istismara veriləcəyi nəzərdə tutulub.

Qarabağ və ətraf rayonlar işğaldan azad ediləndən sonra bölgədə abadlıq-quruculuq işlərinə başlandı. Burada, ilk növbədə, nəqliyyat-logistika layihələrinin gerçəkləşməsinə xüsusi önəm verildi, yol tikintisi, aeroportların salınması məsələləri prioritet vəzifə kimi qarşıya qoyuldu. Məhz bu diqqətin nəticəsi idi ki, Vətən müharibəsindən ötən bir il ərzində Qarabağ və Şərqi Zəngəzurda uzunluğu 700 kilometrə yaxın 10 yol infrastrukturu layihəsinin–"Zəfər", Əhmədbəyli–Füzuli–Şuşa, Toğanalı–Kəlbəcər–İstisu, Kəlbəcər–Laçın, Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd, Talış–Tapqaraqoyunlu–Qaşaltı, Xudafərin–Qubadlı–Laçın, Şükürbəyli–Cəbrayıl–Hadrut, Füzuli–Hadrut, Bərdə–Ağdam avtomobil yollarının sürətlə reallaşdırılması istiqamətində mühüm nəticələr əldə edildi.

Bərpa çərçivəsində gerçəkləşdirilən layihələr sırasında Qarabağın hava qapısı olan Füzuli və Zəngilan hava limanlarının işə salınması ilə yanaşı, Laçında da aeroportun tikintisi həm sosial-iqtisadi, həm də strateji cəhətdən olduqca böyük önəm daşıyır. Bütün bunlar bölgənin canlanmasına, həm yük, həm sərnişin daşımasına, həm də Azərbaycanın öz hərbi gücünü artırmağa, hərbi infrastrukturu yaratmağa böyük töhfə verəcək.

***Nəzrin SULTANOVA,***
***Toğrul İBRAHİMOV,***
***BDU-nun jurnalistika fakültəsinin tələbələri***

# Dünya Bankı və Azərbaycanın milli prioritetləri

## *Beynəlxalq maliyyə qurumu ölkəmizdə 52 layihəyə 4 milyard dollardan çox kredit ayırıb*

**Dünən Bakıda Azərbaycan Çevik Texniki Yardım Alətinin (AZTAF) ikinci illik hesabat toplantısı keçirilib. Tədbirdə çıxış edən Dünya Bankının Azərbaycan üzrə meneceri Steffi Stallmeister bildirib ki, AZTAF Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Dünya Bankı tərəfindən idarə olunan ümumi büdcəsi 5,25 milyon avro olan üçillik proqramdır. Proqramın məqsədinin Azərbaycanın 2030-cu ilə Milli Prioritetləri və 2022–2026-cı illər üzrə Milli Sosial-İqtisadi İnkişaf Strategiyasına uyğun olaraq hökumətə məsləhət və analitik dəstək göstərmək, onun potensialını gücləndirməkdən ibarət olduğunu diqqətə çatdıran ölkə menecerinin dediyinə görə, artıq AZTAF üzrə 9 texniki yardımdan 4-ü tamamlanmaq üzrədir.**

İqtisadiyyat nazirinin müşaviri Rauf Nəcəfli çıxışında bildirib ki, Dünya Bankı tərəfindən indiyədək Azərbaycana 49 başa çatmış və 3 icrada olan layihə üzrə ümumi məbləği 4 milyard dollardan çox olan dövlət zəmanətli kredit, 115-dən artıq texniki yardım və bir çox istiqamətlərdə qrant layihələrinə, təxminən, 30 milyon dollardan artıq vəsait ayrılıb. Bankın Azərbaycanın müstəqillik illərində apardığı islahatlarda uğurlu tərəfdaşlarından biri olduğunu vurğulayan R. Nəcəfli qeyd edib ki, adı çəkilən qurumun maliyyə dəstəyi ilə nəqliyyat, sosial, su təchizatı və irriqasiya, kənd təsərrüfatı, ətraf mühit, ədliyyə və digər sahələrdə həyata keçirilən layihələr ölkə iqtisadiyyatının inkişafına mühüm töhfələr verib.

İqtisadiyyat nazirinin müşaviri, həmçinin son 12 ildə Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığından bəhs edib. Qeyd olunub ki, 2012–2023-cü illər ərzində Avropa İttifaqı tərəfindən ölkəmizə yatırılan investisiyaların ümumi həcmi 24,7 milyard ABŞ dolları təşkil edib. O bildirib ki, Avropa İttifaqı və Dünya Bankı ilə müxtəlif proqram və layihələr çərçivəsində əməkdaşlıq iqtisadi inkişafın təmin edilməsində, innovativ yanaşmaların uyğunlaşdırılmasında mühüm rol oynayır. Avropa İttifaqı ilə əməkdaşlığın ölkəmizin xarici siyasətində mühüm istiqamətlərdən olduğunu vurğulayan R. Nəcəflinin sözlərinə görə, tərəflər arasında münasibətlərin artan dinamikasında ticarət ikitərəfli əməkdaşlığımızın əsas sahələrindən biridir. Diqqətə çatdırılıb ki, Azərbaycan avropalı investorlar üçün cəlbedici bazar olduğundan 2023-cü ildə Avropa İttifaqının ölkəmizin xarici ticarətində payı 24,82 milyard dollar, cari ilin yanvar-aprel ayları üzrə isə 5,31 milyard dollar təşkil edib. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Prezident İlham Əliyevin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edildiyini xatırladan Rauf Nəcəfli onu da qeyd edib ki, sözügedən sənəd çərçivəsində biznes üçün investisiya mühitinin yaxşılaşdırılması, enerji səmərəliliyinin təmin edilməsi, innovasiyaların dəstəklənməsi və stimullaşdırılması, məşğulluğun səmərəliliyinin artırılması və bir sıra əsas fəaliyyətlər müəyyənləşdirilib.

Dünya Bankının su təchizatı üzrə baş mütəxəssisi Smita Misra isə çıxışında bildirib ki, Azərbaycanda suvarma səmərəliliyi ölkə səviyyəsində 37 faiz təşkil edir ki, bu da çox aşağı göstəricidir. O deyib ki, ölkənin ayrı-ayrı regionlarında suvarma səmərəliliyi çox dəyişkəndir, hətta əksər regionlarda 20-50 faiz arasında dəyişir. Bütövlükdə isə, Azərbaycanın suvarma suyunun çatışmazlığından əziyyət çəkdiyini vurğulayan bank mütəxəssisinin sözlərinə görə, hazırda ölkə üzrə əkinə yararlı 1,5 milyon hektar torpaq sahələrindən faktiki olaraq 1 milyon hektarı suvarılır.




O bildirib ki, həddindən artıq istifadə olunan suvarma suyunu azaltmaq üçün tədbirlər geniş miqyasda tətbiq olunarsa, ölkə miqyasında xalis suvarma suyu istehlakını 40 faizə qədər azaltmaq potensialı var. "Suvarma intensivliyi olan əkinlərin əvəz edilməsi suya qənaət etməyə kömək edə bilər. Məsələn, taxıl bitkiləri ilə əvəz olunan hər hektar yem və ya pambıq sahəsi üçün əlavə bir hektar torpağı suvarmaq olar",– deyə Smita Misra qeyd edib.

Dünya Bankının energetika üzrə baş mütəxəssisi Florian Kitt isə deyib ki, təmsil etdiyi qurum Azərbaycan hökuməti ilə karbon qazı emissiyalarının kvotalarının monetizasiyası imkanlarını müzakirə etməyi planlaşdırır. O bildirib ki, enerji keçidini daha əlçatan etmək üçün karbon vergiləri və karbon bazarları kimi bir çox vasitələr var. "Biz hökumətlə birlikdə Azərbaycan üçün optimal həll yolu tapmağa çalışırıq. Bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasının təmin edilməsi məqsədilə ötürücü şəbəkənin gücləndirilməsi (AZURE) layihəsi çərçivəsində Azərbaycan iqtisadiyyatı üçün təsirli bir yanaşma inkişaf etdirməyi planlaşdırırıq. Layihənin uğurla həyata keçirilməsini təmin etmək üçün Azərbaycanın mövcud qanunvericiliyini nəzərə alacağıq",– deyə o əlavə edib.

Yeri gəlmişkən, AZURE layihəsinin ilkin hesablamalara görə, ümumi dəyəri 250 milyon ABŞ dolları təşkil edəcək. Layihə çərçivəsində birinci mərhələdə Dünya Bankı Neftçala rayonunda (315 meqavatlıq) və Biləsuvarda (445 meqavatlıqlıq) ümumi gücü 760 meqavat olan günəş elektrik stansiyalarının elektrik şəbəkəsinə inteqrasiyası üçün ötürücü infrastrukturu maliyyələşdirəcək.

Dünyada binaların enerji istehlakında 30 faiz paya malik olduğunu vurğulayan Florian Kitt Azərbaycanda bu rəqəmin 38 faizini təşkil etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, sənaye və digər sahələr də daxil ediləcəyi təqdirdə bu rəqəm 50 faizə çatacaq. Qeyd olunub ki, sovet dövründən qalan istilik sistemi olduqca səmərəsizdir və bu istiqamətdə işlərin görülməsinə ciddi ehtiyac var. Dünya Bankının bu istiqamətdə Azərbaycana lazımi dəstəyi göstərməyə hazır olduğunu bildirən mütəxəssis deyib ki, sözügedən məsələnin həlli ilə bağlı yol xəritəsi də hazırlanır.

Xatırladaq ki, 2022-ci ilin fevral ayında Avropa İttifaqı və Dünya Bankı Azərbaycan üçün Çevik Texniki Yardım Aləti üzrə İnzibati Saziş imzalayıblar. AZTAF proqramı hökumətin təxirəsalınmaz prioritetlərinə cavab verən konkret fəaliyyətləri əhatə edir. Bu fəaliyyətlər hökumətin dövlət müəssisələrinin idarəçiliyi, dövlət satınalmaları, su ehtiyatlarının idarə edilməsi, "ağıllı kəndlər", rəqəmsal inkişaf, enerji səmərəliliyi, qadınların sahibkarlıq fəaliyyəti, əlillik və inkluzivlik kimi geniş spektrli prioritetlərini dəstəkləyəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan “yaşıl” iqtisadiyyatı çiçəkləndirir

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, COP üçün əsas mövzu olan maliyyələşmə barədə Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol vurğulayıb ki, yoxsul ölkələrə qlobal istiləşmə ilə mübarizə aparmaq üçün maliyyələşdirmənin artırılması və bu vəsaitlərin onlar arasında necə bölüşdürüləcəyi ilə bağlı müzakirələr hələ də davam edir. Noyabr ayında Bakıda keçiriləcək COP29 konfransı ərəfəsində ölkələr iqlim proqramlarının illik maliyyələşdirilməsinin yeni məqsədinin təfərrüatlarını hazırlayırlar. Bu da ehtimal edilir ki, ən azı 100 milyard dollar təşkil edəcək. Mövzu BMT sammitlərində mübahisələrə səbəb oldu, çünki 2009-cu ildə yoxsul ölkələrə 2020-ci ilə qədər ildə 100 milyard ABŞ dolları ayırmaq üçün təyin edilmiş yeni iqlim maliyyəsi hədəfi yalnız bir dəfə, 2022-ci ildə yerinə yetirilib.

F.Birol qeyd edib ki, “təmiz” enerjiyə ümumi qlobal sərmayə əhəmiyyətli dərəcədə artmaqdadır, lakin inkişaf etməkdə olan bazarlara və ölkələrə ayrılan vəsaitin həcmi 2015-ci ildən bəri ümumi məbləğin 15 faizini təşkil edərək “dəyişməz qalıb”. Onun sözlərinə görə, hazırda bu, təxminən 250 milyard ABŞ dolları təşkil edir: “Beləliklə, mənim fikrimcə, bu, iqlim hədəfinə çatmaq yolumuzdakı qüsur xəttidir. Bu, Azərbaycandan və digər ölkələrdən olan həmkarlarımızla yüksək səviyyəli dialoqlarımız üçün əsas mövzu olacaq”.

COP29-un Baş danışıqçısı Yalçın Rəfiyev isə maliyyələşmə ilə əlaqədar Yaponiyanın “Nikkey” nəşrinə müsahibəsində vurğulayıb ki, ölkələr “Paris sazişi” çərçivəsində öhdəliklərini yerinə yetirmək, o cümlədən 1,5 dərəcə hədəfinə nail olmaq üçün iddialı addımlar atmağa davam etməlidirlər: “COP29 inkişaf etmiş ölkələrin iqlim fəaliyyətinə ildə 100 milyard ABŞ dolları yönəltmək üçün yeni maliyyələşdirmə hədəfi qəbul etməyə hazırlaşır. Hazırkı maliyyə axını ölkələrə keçid prosesini uğurla başa çatdırmaq üçün kifayət etmir”.

Y.Rəfiyev onu da vurğulayıb ki, Azərbaycan neft və qaz ixracatçısı olsa da, ölkə bərpaolunan enerji mənbələrinə sərmayə yatırmaqda davam edir və metan emissiyalarının azaldılması üçün bütün səyləri göstərir. O, eyni zamanda, respublikanın ən böyük neft və qaz hasilatçısı olan Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) 2050-ci ilə qədər emissiyaları sıfıra endirmək məqsədini xatırladıb.

Qeyd edək ki, Azərbaycanda dünyanın ən irimiqyaslı tədbirlərindən biri hesab olunan COP29-un keçirilməsi qərarı veriləndən dərhal sonra ölkəmiz “yaşıl enerji”nin inkişafı istiqamətində həyata keçirilən layihələrin icrasını daha da sürətləndirdi. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin bu barədə məlumatına diqqət yetirsək, qısa müddətdə genişmiqyaslı işlər haqqında aydın təsəvvür yaranar. Məsələn, Naxçıvan Muxtar Respublikasında “Yaşıl enerji zonası”nın yaradılması istiqamətində külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal gücləri xarici investisiya hesabına yaradıldı və onun ən azı 1000 MVt-nın Türkiyəyə və Avropaya ixrac olunması əsas hədəf kimi qarşıya qoyuldu.

Hazırda muxtar respublikada gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanları araşdırılır.

Onu da deyək ki, təkcə Naxçıvan deyil, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur da “yaşıl enerji” mənbələrinin yüksək potensialı ilə fərqlənir. Belə ki, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında günəş enerjisi potensialı, Laçın və Kəlbəcər rayonlarında külək enerjisi potensialı yüksək qiymətləndirilir. BP şirkəti tərəfindən Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə “Şəfəq” Günəş Elektrik Stansiyası layihəsi həyata keçirilir. Bundan əlavə, “China Gezhouba Group Overseas Investment” və “Nobel Energy” şirkətləri ilə imzalanan müqavilələr çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda günəş elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.



Xatırladaq ki, energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Abu-Dabi Dayanıqlılıq Həftəsi çərçivəsində keçirilən “Yaşıl” Hidrogen Sammitində çıxış edərək işğaldan azad edilmiş ərazilərdə “yaşıl zona”ların ayrılması və bu sahələrdə hidrogen istehsal olunacağını da xatırladıb və bu prioritetin Avropa ilə əməkdaşlıqda təməl daşlarından biri kimi diqqətdə saxlandığı qeyd edilib.

Ekspertlərin fikrincə, hidrogen 100 faiz bərpaedilən enerji imkanlarına nail olmaq üçün mühüm önəm daşıyır. Azərbaycanda müxtəlif strateji sənədlərdə hidrogendən istifadə üzrə inkişaf da nəzərə çarpır. Ölkəmizin əsas iqtisadi inkişaf strategiyası təkcə hidrogenin istehsalı və istifadəsini deyil, həm də istehsal və ixrac imkanlarının öyrənilməsini özündə ehtiva edir.

Hazırda ölkəmiz Aİ ilə birgə “yaşıl enerji” dəhlizini inkişaf etdirir. Bu təşəbbüs Azərbaycanda istehsal olunan bərpaedilən enerjinin Avropaya nəqlinə yönəlib. Həmçinin respublikamızı “yaşıl enerji” dəhlizinin yaradılması üzrə Qazaxıstan və Özbəkistanla birləşdirən daha bir layihə icra mərhələsindədir, bu təşəbbüsdə ekoloji cəhətdən təmiz hidrogen həyati əhəmiyyətli rol oynayır.

Mütəxəssislərin fikrincə, Azərbaycan dənizdə külək enerjisi üzrə də yüksək potensiala malikdir. Qiymətləndirməyə görə, Xəzər dənizinin respublikamıza məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 QVt (dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt) səviyyəsindədir. Bu potensialın hərəkətə gətirilməsi baxımından Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” 2019-cu il 29 may tarixli sərəncamı xüsusi diqqət çəkir. Adıçəkilən sərəncamla qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi məqsədilə sahəyə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi istiqamətində Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası ilə “Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi” hazırlanması bunun bariz ifadəsidir.

Beləliklə, COP29 ölkəsi olaraq Azərbaycan 2030-cu ilədək və ondan sonrakı dövrdə “yaşıl enerji” və iqlimlə bağlı hədəflərin reallaşmasına milli səviyyədə töhfə vermək və iqlim fəaliyyəti üzrə qlobal həmrəyliyin hərəkətverici qüvvəsi olmaq əzmindədir.

Azərbaycanın daxili istehlak, iqtisadiyyatın dekarbonizasiyası və ixrac məqsədilə quruda və dənizdə “yaşıl enerji” planları 2027-ci ilədək olan birinci mərhələdə 2 QVt, 2030-cu ilə qədər növbəti mərhələdə isə 8 QVt-dan çox “yaşıl enerji” güclərinin reallaşdırılmasını hədəfləyib. Bu, bərpaolunan enerji potensialının ölkəmiz vasitəsilə, təxminən, 2027-ci ildə 2 dəfə, 2030-cu ilə olan dövrdə isə 4 dəfədən çox artımını vəd edib. Respublikamızda elektrik enerjisinin qoyuluş gücündə “yaşıl enerji” payını ilkin hədəf göstəricisindən 3 faiz çox və 3 il tez olmaqla 33 faizə yüksəldən bu layihələr Avropa ölkələrində də bərpaolunan enerji potensialının artırılmasının mənbələrindən olacağı göstərilib.

“Yaşıl enerji”nin dünya bazarlarına nəqli Azərbaycan dövlətinin enerji siyasətində əsas istiqamətlərdən biridir. Azərbaycan 2030-cu ilədək 5 min meqavat bərpaolunan enerji istehsalı potensialına malik olmağı planlaşdırır. 2023-cü ildə respublikamızda Qafqazın və Mərkəzi Asiya regionunun 230 meqavat gücündə ən böyük günəş elektrik stansiyası istifadəyə verilib və bu cür yeni stansiyaların tikintisi davam edir. Xəzər dənizindən Qara dənizə və Avropaya qədər uzanacaq “yaşıl enerji” elektrik kabelinin inşası istiqamətində mühüm işlər görülür.

Yuxarıda göstərilənlərdən bir daha aydın olur ki, “yaşıl enerji”yə keçid qlobal ekoloji problemlərin həllində əhəmiyyətli rol oynayır. Ekoloji fəlsəfədə “yaşıl enerji”nin xüsusiyyətləri insan-təbiət münasibətləri kontekstində öyrənilir. “Yaşıl enerji”yə keçid ekosistemdə dayanıqlığın və insanın tələbatları ilə təbiətin imkanları arasında tarazlığın təmin olunmasında böyük əhəmiyyət daşıyır.

“Yaşıl enerji” mənbələrindən enerji istehsalı iqlim dəyişikliyinin və qlobal istiləşmənin qarşısının alması üçün vacibdir. “Yaşıl enerji” istehsalı enerji təhlükəsizliyinin təmin olunmasında özünəməxsus yer tutur, yeni texnologiyaların və innovasiyaların inkişafına təkan verir. Azərbaycan Respublikası coğrafi baxımdan əlverişli “yaşıl enerji” potensialına malikdir və ondan səmərəli şəkildə istifadə edilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti aparılır.

***V.BAYRAMOV***
***XQ***

## Enerji keçidi – 1,5 milyard dollar investisiya

**“Azərbaycanda enerji keçidi üzrə reallaşdırılan layihələr çərçivəsində, ümumilikdə, 1,5 milyard ABŞ dolları məbləğində investisiya yatırılıb və yatırılmaqdadır. 20-25 il müddətinə hesablanan böyük layihələr ölkəmizin gələcəyinə, dövlət siyasətinə olan inamın göstəricisidir”. Bu fikri energetika nazirinin müavini Samir Vəliyev “Yaşıl artım gündəliyində təhsil” mövzusunda keçirilən konfransda çıxışı zamanı səsləndirib.**



Ölkəmizin nəhəng neft və qaz sərvətlərinə malik olduğunu xatırladan nazir müavininin sözlərinə görə, bu sərvətlərin ixracı nəticəsində böyük maliyyə vəsaitləri qazanılır, tələbatlar ödənilir. O deyib ki, enerji tələbatının ödənilməsi baxımından bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsində belə bir ciddi zərurət yoxdur. Azərbaycanın beynəlxalq iqlim dəyişikliyi, atmosferə atılan tullantıların azaldılması ilə bağlı könüllü olaraq bir sıra hədəflərin müəyyən etdiyini vurğulayan S.Vəliyevin sözlərinə görə, Prezident İlham Əliyev beş ilkin prioritetlərdən biri kimi məhz “yaşıl inkişaf”ı müəyyən edib. “2022–2026-cı il üçün “Sosial-İqtisadi İnkişaf Strategiyası”, “Böyük Qayıdış” planında çox ciddi hədəflər müəyyənləşdirilib. Biz 2027-ci ilə qədər “yaşıl enerji” mənbələri ilə bağlı layihələrin həyata keçirilməsini nəzərdə saxlamalıyıq. Bunun enerji sistemimizə inteqrasiyasını da həyata keçirəcəyik”, – deyə o, əlavə edib.



Xəzər dənizində də böyük külək enerji potensialı mövcudluğuna toxunan nazir müavinin dediyinə görə, ölkəmiz bu imkanlardan istifadə etməklə əldə edilən enerjinin Avropa ölkələrinə ixrac edilməsini planlaşdırır. Azərbaycanın bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edən energetika nazirinin müavini ötən ilin oktyabr ayında Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti tərəfindən 230 meqavatlıq “Qaradağ” Günəş Elektrik Stansiyasının tikintisinin uğurla başa çatdırılmasını, hazırda isə 1 qiqavat gücündə 3 elektrik stansiyasının inşasına start verildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, qarşıdakı dövrdə 240 meqavatlıq “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının tikintisi layihəsinin həyata keçirilməsi planlaşdırılır.

S.Vəliyev, həmçinin növbəti illərdə bu sahədə görülməli olan işlərə də toxunub. Bildirilib ki, həyata keçirilməli layihələrdən birincisi bərpaolunan enerjilərin inteqrasiyası həyata keçirilməklə bu sahə gücləndirməlidir. İkinci istiqamətin isə dənizdə istehsal ediləcək “yaşıl enerji”nin Avropa ölkələrinə ixracını təmin etməkdən ibarət olduğunu xatırladan nazir müavininin dediyinə görə, hazırda bu sahədə lazımi işlərin görüldüyünü bildirib. “Məlum olduğu kimi, hazırda 3 dəhliz üzərindən işlər aparılır. Bunlardan birincisi Xəzər dənizi – Qara Dəniz Avropa yaşıl enerji dəhlizi, Azərbaycan – Türkiyə Zəngəzur dəhlizi vasitəsilə Naxçıvan üzərindən aparılan, üçüncü mühüm istiqamət isə yeni başladığımız Mərkəzi Asiya ölkələrindən, onların “yaşıl enerji” resurslarının Azərbaycan vasitəsilə Avropaya ixracını həyata keçiririk. Bu bizim strateji hədəflərimizdir, – deyə nazir müavini qeyd edib.

***M.QULİYEV***
***XQ***

## COP29 könüllülərinin qeydiyyatı başlayıb

**Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) könüllülərin iştirakını təşkil etmək üçün qeydiyyat prosesinə start verilib.**




Ötən illər ərzində ölkəmizin evsahibliyi etdiyi irimiqyaslı tədbirlərin icrasında olduğu kimi, könüllülər qlobal əhəmiyyətli COP29-un təşkilində də mühüm rol oynayacaqlar. Belə ki, konfransın təşkilati işləri ilə bağlı zəruri əməliyyatların icrası məqsədilə COP29 Azərbaycan Əməliyyat Şirkətinin fəaliyyəti çərçivəsində həm yerli, həm də xarici vətəndaşların, ümumilikdə isə 3000 könüllünün prosesə cəlb olunması gözlənilir.

Könüllülük proqramı çərçivəsində COP29-a öz töhfəsini vermək, eləcə də təcrübə, işgüzar vərdiş və fərdi inkişafa yiyələnmək niyyətində olan könüllülərin layihəyə rahat və koordinasiyalı şəkildə qoşulmaları üçün www.volunteers.cop29.az onlayn qeydiyyat platforması istifadəyə verilib.

Platformada qeydiyyatdan keçərək onlayn anket formasını dolduran şəxslər potensial könüllü qrupuna daxil olurlar. Daha sonra bütün elektron anketlər müraciət edən şəxsin ən az 16 yaşında olması, habelə bilik və bacarıqlar, motivasiya, xarici dil biliyi və bu kimi digər müxtəlif meyarlar, eləcə də COP29-un məqsəd və dəyərlərinə uyğunluq üzrə nəzərdən keçiriləcək, müvafiq namizədlər müsahibəyə, sonra isə təlimlərə dəvət ediləcəklər. Yekun mərhələni uğurla tamamlayan namizədlər COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən media, qonaqlama xidmətləri, nəqliyyat, logistika və digər əməliyyat istiqamətləri üzrə fəaliyyətə cəlb olunacaqlar. Qeydiyyat prosesini asanlaşdırmaq məqsədilə yarana biləcək suallarla bağlı müraciət etmək üçün Çağrı mərkəzi (+994 12 535 29 28) də könüllülərin xidmətindədir.

***XQ***



## Azərbaycan ətraf mühit sahəsində təşəbbüskar ölkədir

***Ətraf mühit amilləri milli fəaliyyət planları ilə uyğunlaşdırılmalıdır. Beynəlxalq mina fəaliyyətləri standartlarının yenilənməsi bu yaxınlarda dərc olunacaq.***

Bu fikirlər BMT-nin Sülh Əməliyyatları Departamentində Qanunun aliliyi və təhlükəsizlik institutları üzrə baş katibin köməkçisi Aleksandr Zuyevin “Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması” mövzusuna həsr olunmuş III Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçılarına videomüraciətində yer alıb.

Azərbaycan hökumətinə ətraf mühiti qorumaq üçün göstərdiyi səylərinə, xüsusilə mina fəaliyyətini 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi təqdim etdiyinə görə təşəkkürünü çatdıran baş katibin köməkçisi ölkəmizin COP29-a evsahibliyi etməsini bu sahədə işlər görməkdə maraqlı olduğu ilə əlaqələndirib.

***XQ***

## Cəbrayılda da Günəşdən enerji alınacaq

**Nazirlər Kabineti Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında qərar verib.**

Qərara əsasən, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid hissədən ibarət 940 hektar torpaq sahəsi qoyuluş gücü 240 MVt olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib.

Energetika Nazirliyi müəyyən edilmiş bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli fərmanı ilə təsdiq edilmiş “Bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası”nın tələblərinə uyğun həyata keçirməlidir.

Bu qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 940 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə “Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün ərzində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməlidir.

***XQ***



# Qələbəyə 1 gün qalmış...

**Cəmi bir gündən sonra müharibə bitəcəkdi. Qələbə xəbərinə bürünəcəkdi ölkəmiz. Almayacaqdıq daha şəhid xəbərlərini. Oğulsuz qalmayacaqdı analar, atalar. Atasız qalmayacaqdı körpə balalar... Boynu bükülməyəcəkdi qız-gəlinlərin. Amma bu bircə günün içində dünyaya sığmadı nur üzlü şəhidim...**



Rabitə rəisi mayor Əlövsət Əli oğlu Məmmədov 1988-ci ildə Goranboy rayonunun Muzdurlar kəndində anadan olub. Orta təhsildən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2009-cu ildə həmin məktəbi leytenant rütbəsi ilə bitirərək bir sıra hərbi hissələrdə xidmət edib. 2013-cü ildə ailəsi



ilə birgə cəbhə bölgəsində yaşamağa yollanıb. Ta şəhid olanadək Ağcabədidə xidmət edib. 2016-cı ilin 4 günlük aprel döyüşlərinin iştirakçısı olub. Azərbaycan dili ilə yanaşı rus, ingilis, alman dillərini də mükəmməl bilirdi Əlövsət.

Sentyabr ayının 27-dən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına cavab olaraq başlanan Vətən müharibəsində mayor Məmmədov torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə atıldı.

– Əslində, cəbhə zonasına gedən gündən həmişə onu itirmək qorxusu olub içimdə. Çünki asan deyil hər an ölüm riski olan birini sevmək, yolunu gözləmək, – ömür-gün yoldaşı Rahinə xanım deyir bu sözləri. – Qohum olduğumuz üçün bir-birimizi uşaqlıqdan tanımışıq. Mən orta məktəbin son sinfində oxuyanda o artıq hərbi kursant idi. Sonra ailə qurduq. Əgər yenidən dünyaya gəlsəydim, ömrünün yarımçıq qalacağını bilsəydim belə, yenə onu seçərdim. O mənim cümlələrə sığdıra bilmədiyim acım və qürur mənbəyimdir.

Rahinə xanım Əlövsətdən sonra yarımçıq qalan evi tamamlayıb. Bir otaq ayıraraq şəhidin adına-sanına uyğun muzey yaradıb. Hər iki oğlunun gələcəkdə hərbçi olmasını, atalarının yolunu davam etdirməsini arzulayır.

Əlövsətin cəbhə dostu, mayor Tural Quliyevin dedikləri:

– Biz təkcə döyüş yoldaşı deyil, qardaş, sirdaş idik. İlk növbədə, bir insan kimi vicdanlı, ləyaqətli oğul idi. Heç bir çətinlik onu qarşısına qoyduğu məqsəddən vaz keçirə bilməzdi. Əlövsət tabeçiliyində olan hərbi qulluqçulara daim böyük qardaş münasibəti bəsləyirdi, şəxsi problemlərinə də kömək edirdi. Onun üçün hər şeydən öncə bir zabit kimi üzərinə düşən vəzifələri icra etmək önəmli idi.

Şəhid olduğu gün həyatımın ən çətin günü oldu. Gecə idi. Hərəmiz bir istiqamətdə döyüşmüşdük. Yatıb, dincəlib növbəti döyüşə girməmiz üçün 3 saat vaxtımız vardı. Əlövsət zəng elədi, ordan-burdan danışdıq, zarafatlaşdıq. Dedim, imkan ver, yataq, səhər yenə döyüşə girəcəyik. Dedi ki, nə yatmaq, bəlkə son danışığımızdı... Bəlkə şəhid olduq... Düzü, bu sözdən üşəndim.

Həmin gün daha ağır döyüşlər başlandı. Əlövsət əsgərləri ilə birgə strateji əhəmiyyəti böyük olan bir yüksəklik uğrunda döyüşə girdi. Onun döyüş ruhu yaradan səs tonu ilə verdiyi komanda əsgərləri daha da ruhlandırırdı, qələbəyə inamı artırırdı. Maksimum səviyyədə şəxsi heyəti qoruyaraq irəliləyirdi. Və döyüş tapşırığı uğurla başa çatdı, yüksəklik götürüldü. Amma həmin gün... müharibənin 43-cü günü... Döyüş tapşırıgını yerinə yetirərkən şəhid oldu Əlövsət.

Şəhidliyi ilə yalnız atası Əli kişinin, anası Xalidə xanımın, qardaşı Sübhanın, bacısı Lalənin, ömür-gün dostu Rahinənin, oglanları Mətin və Sənanın deyil, bütün Goranboyun, bütün Azərbaycanın doğması, əzizi oldu...

Əlövsət Məmmədov xidmət müddətində komandanlığın çoxlu sayda təltiflərinə layiq görülüb. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 və 100 illikləri, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla təltif olunub. II Qarabağ müharibəsindəki igidliyi isə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

Bəli, ölümlə qələbə arasındakı məsafə cəmi bircə gün oldu. Noyabrın 8-i Zəfər Günündə şəhidlik zirvəsinə ucaldı nur üzlü şəhidim. Uğrunda canını qurban verdiyi üçrəngli Vətən bayrağına sarılaraq elə Bayraq Günündə, noyabrın 9-da nəhəng bir izdihamla doğulduğu Muzdurlar kəndində Şəhidlər xiyabanında dəfn edildi.

44 günlük Vətən müharibəsinin 43-cü günündə şəhidlik zirvəsinə ucalan mayor Əlövsət Məmmədov, haqqın ödənməz! Nur içində yat!

***Xuraman ABBASOVA,***
***Goranboy rayonunda çıxan "Mübariz" qəzetinin baş redaktoru***

# Şəhid şairin könül yadigarı

**Aydın Nəriman oğlu Əliyev 9 yanvar 1991-ci il Sumqayıt şəhərində anadan olub. Əslən Tovuz rayonunun Aşağı Quşçu kəndindəndir. 1998-ci ildə Sumqayıtdakı 9 nömrəli məktəbdə 1-ci sinfə gedib, sonra 4 saylı Texniki Peşə Liseyində təhsilini elektrik peşəsinə yiyələnməklə başa vurub. Arabir xalq yaradıcılığı üslubunda şeirlər yazıb, duyğularını misralara çevirib. 2010–2011-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuş Aydın II Qarabağ müharibəsi başlananda ilk könüllülər dəstəsinin tərkibində döyüşə yollanıb.**




Müharibənin 3-cü günü Şuşa uğrunda gedən döyüşlərdə qolundan ağır yaralanaraq, komaya düşüb. Həkimlər 2 ay ərzində onu sağlamlığına qovuşdurmağa çalışsalar da, 27 noyabr 2020-ci ildə sevgi dolu gözlərini dünyaya əbədi yumub.

Şəhid Arif Nəriman oğlu Əliyev ölümündən sonra Füzulinin, Zəngilanın, Cəbrayılın və Xocavəndin azad olunmasına görə medallarla təltif olunub.

Onun özündən sonra Salman və Nəriman adında iki oğlu, bir də yazdığı şeirləri yadigar qalıb. Həmin şeirlərdən birini təqdim edirik:

**Ata**

**Bilməmişəm mən qədrini bəlkə də,**
**Mən əsgərəm, sən qürurlu atasan.**
**Elə bir ad qoyacam ki həyatda,**
**Sən başını daima dik tutasan.**

**Çox sözünü dinləmədim bəlkə də,**
**Kövrəlirəm, ay ömrümün bəzəyi.**
**Səhvlərimi ağ saçlara bağışla,**
**Kövrək olur, axı, ata ürəyi.**

**Qardaşsız saymıram özümü, ata,**
**Bir qardaş qeyrətli bacım var mənim.**
**Onun varlığıyla fəxr eləyirəm,**
**Deyirəm, başımda tacım var mənim.**

**Böyük qardaşımsan sən də, elə bil,**
**Canımda, qanımda, varlığımdasan!**
**Həm ata, həm qardaş, həm də dost olan**
**Zirvəsi göylərdə bir dağım da – sən!**

# 55 yaşlı Həzi Aslanov muzeyi



**İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun Lənkərandakı ev-muzeyi 9 may 1969-cu ildə açılıb. Muzeyin binası yerli memarlıq üslubunda çiy kərpicdən tikilmiş birmərtəbəli açıq eyvanlı evdir. İndiyədək buranı 10 minlərlə adam ziyarət edib.**

Yubilyar muzey fəaliyyətə başlayanda 2 otaqlı olub. 1983-cü ildə otaqların sayı 5-dək artırılıb. Birinci otaq qəhrəmanın doğulub boya-başa çatdığı mühiti əks edir. Buradakı eksponatlar arasında anasının işlətdiyi ev əşyaları da var, bacısı Asiya Aslanova tərəfindən muzeyə hədiyyə edilib. Növbəti otaqda yerləşən eksponatlar Həzinin 1924–1940-cı illərdə Bakıda və Leninqradda hərbi məktəblərdə təhsil aldığı dövrdən, eləcə də Finlandiya döyüşlərindən soraq verir. Moskva və Stalinqrad uğrunda (1941–1943) gedən döyüşlərə həsr olunmuş 3-cü otaqda qəhrəmanın şəxsi əşyaları yerləşir. Sonrakı otağın eksponatları general-mayorun 1944–1945-ci illərdə göstərdiyi misilsiz hünərdən danışır. Xatirə zalı adlanan 5-ci otaqda isə muzeyə verilən müxtəlif hədiyyələr, qəhrəmanın həlak olduğu gün əynində olan hərbi paltarları, xatirə əşyaları, albom və kitabları qorunur. Ümumiyyətlə, muzeyin 2 mindən artıq eksponatı var. Bunların 302-si əsas, 1710-u isə köməkçi fondda yerləşir.

Onu da bildirək ki, muzeyə dünyanın çox yerindən – Amerika, Kanada, Fransa, Bolqarıstan, Norveç, Latviya, Litva, Kuba, Rusiya, Polşa, Türkiyə, Ukraynadan qonaqlar ziyarətə gəlib və xatirə kitabına təəssüratlarını yazıblar.

Bugünlərdə əfsanəvi qəhrəmanın ev-muzeyinin 55 yaşı qeyd olunub. Rayon rəsmiləri, Müdafiə Nazirliyinin nümayəndələri, rəşadətli Azərbaycan Ordusunun tankçı qəhrəmanları, veteranlar, ictimaiyyət nümayəndələri, Həzi Aslanovun ailə üzvləri əvvəlcə qəhrəmanın Xatirə Parkına baş çəkib, abidəsi önünə əklil qoyub, təzə qərənfillər düzüblər.

Mərasim Həzi Aslanovun dünyaya göz açdığı ocaqda davam etdirilib. Dövlət himnimiz oxunub, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Ardınca Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani II Dünya müharibəsinin igid sərkərdəsi, ölümü ilə ölümsüzlüyə qovuşan Həzi Aslanovun mənalı həyatı, şərəfli döyüş yolu və qəhrəmanlığı barədə qürurla söhbət açıb. Xatirə şəkilləri çəkdirilib.

***Zəfər ORUCOĞLU***

# Əkiz qardaşların ortaq taleyi

**Ağdam rayonunun Çullu kəndində Allahverdiyevlər ailəsində 23 il əvvəl eyni gündə dünyaya gələn Nazir və Tacir Allahverdiyev qardaşlarının taleləri, həyat yolları da qoşa olub. Heç vaxt bir-birindən ayrılmayan əkizlər hərbi xidmətə də birlikdə yollanıblar. 44 günlük Vətən müharibəsində iştirak edərək bir yerdə döyüşüb, bu müqəddəs yolda eyni gündə – 24 oktyabrda şəhid olublar.**




10 uşaqlı ailənin sonbeşikləri olan Nazirlə Tacir mahir topçular olaraq Füzuli–Cəbrayıl–Zəngilan, Xocavənd uğrunda gedən döyüşlərdə fərqləniblər. Şəhidliyə qovuşandan sonra Prezident İlham Əliyevin 2020-ci il 25 dekabr tarixli sərəncamına əsasən göstərdikləri igidliyə görə "Vətən uğrunda" medalı ilə təltif olunublar. Qardaşların xatirəsi anılan gün Ağdam Rayon İcra Hakimiyyətinin nümayəndələri, Çullu kənd tam orta məktəbin müəllim və şagird heyəti, şəhid ailələri onların yanbayan məzarlarını ziyarət edib, önünə gül dəstələri düzüblər. Əslində onlar hər gün yad olunur, xatirələri daim əziz tutulur.

Mərasimdə şəhid qardaşların döyüş yollarına nəzər salınıb. Çıxış edənlər Tacir və Nazir Allahverdiyevlərin Vətən sevgisindən, keçdikləri şərəfli döyüş yolundan danışıblar.

Şəhidlərin anası Nailə xanım isə deyib ki, əkizləri eyni gündə evləndirmək arzusunda olub: "Eşitmişdim ki, gözəltıları var. Onlar da iki bacıymışlar. Əhd eləmişdim, əsgərlikdən gələn kimi ikisini də eyni gündə evləndirim... Qismət olmadı. Amma Qələbə qazandığımıza görə nikbinəm. Şükür Allaha ki, torpaqlarımız işğaldan tamamilə azad olundu. Balalarımın qanı yerdə qalmadı. Müharibə yenidən başlasa, Vətən çağırsa, o biri oğullarımın da döyüşlərə qatılmasına mane olmaram. Tez-tez gedirəm məzarlarının üstünə və deyirəm: Ay Nazir, ay Tacir, gözünüz aydın olsun, azad görmək istədiyiniz, bu yolda canınızı qurban verdiyiniz yurdlarımız erməni dığalardan təmizlənib".

Əkiz şəhidlərin qardaşı Cəfər də qardaşları haqqında xatirələrini danışıb: "Nazir idmanla məşğul olmağı hədsiz sevirdi. Tacir onun qədər idmana meyilli olmasa da, Nazirin təkidindən sonra o da Quzanlıya məşqlərə həvəslə gedib-gəlirdi. Bir gün gördüm ki, həyətdə turnik quraşdırırlar. Həvəslə yeri qazdılar, dəmir dirəyi basdırdılar. Dirək yerinə oturar-oturmaz məşqlərinə başladılar. Elə cəldliklə idman hərəkətləri edirdilər ki, yıxılacaqlar deyə, az qalırdı ürəyim qopsun. Allah, o turnikin başına nə oyun gətirirdilər... Qəribə uşaqlar idilər. Əsgər olmağa, hərbi paltar geyinməyə o qədər həvəsli idilər ki, əsgərlikdən bir qohum gələndə, gedib onun formasını alıb geyinib, yaraşıb-yaraşmadıqlarını öyrənirdilər. Mən əsgərlikdən gələndə hərbi formamı bircə gün əynimdə gördüm. Nazir geyindi, Tacirə verdi, Tacir geyindi, Nazirə verdi. Forma cırılana qədər əl çəkmədilər (gülümsəyir, susur) ... Onlar üçün o qədər darıxıram..."

Cəfər qardaşları ilə fəxr etdiyini hər zaman qürurla dilə gətirir: "Heç inana bilmirəm ki, onlar bir də bu darvazanı açıb gülə-gülə içəri girməyəcəklər, o, turnikdə sallanmayacaqlar. Elə bilirəm, hələ əsgərlikdədirlər... Yenə zəng gələcək, yenə bir-birinə aman vermədən sevinclə deyəcəklər ki, işimiz çoxdu, it qovuruq...Özümü ağır bir yuxunun içində hiss edirəm. Amma bütün ruhumla duyuram ki, Nazir də, Tacir də bizim yanımızdadırlar, ruhları şaddır, sevinclidirlər... Həm torpağımız işğaldan azad olub, həm silahdaşları onların qisasını alıb. Həm də bütün Azərbaycan onlarla fəxr edir. Vallah, ölümlərin ən gözəli şəhid olmaqdır. Yaranan bir gün öləcək... Amma şəhidlər – əsla!"

# Zaqatalanın "Vətən fədailəri"




**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında uzun illər Zaqatala Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru vəzifəsində çalışmış Gülniyar Qurbanqızının Zaqatala şəhidlərinə və döyüşçülərinə həsr olunmuş "Vətən fədailəri" adlı 1-ci və 2-ci kitablarının təqdimat mərasimi keçirilib.**

Mərasimdə Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü Varis Yolçuyev, tanınmış yazıçı, tarixi romanların müəllifi Yunus Oğuz, Vətən müharibəsi iştirakçıları, şəhid ailələri, Bakı Dövlət Universitetinin informasiya və sənəd menecmenti fakültəsinin tələbələri və kitabxana əməkdaşları iştirak ediblər.

Ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilən toplantını açan kitabxananın direktoru Aslan Cəfərov Şanlı Zəfər tarixinə nəzər salaraq böyük sərkərdə, Ali Baş Komandan cənab Prezident İlham Əliyevin müdrik siyasəti, rəşadət göstərən əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində düşmənə sarsıdıcı zərbələr endirildiyini və bununla da, tariximizə yeni bir səhifənin yazıldığını söyləyib. O, Vətən uğrunda canından keçmiş Azərbaycan oğullarının həyat hekayələrinin əsl örnək olduğunu bildirərək bu mövzuda qələmə alınan əsərlərin əhəmiyyətindən danışıb. Gülniyar Qurbanqızının "Vətən fədailəri" kitablarının bədii dəyərini açıqlayıb.

Tarixi romanlar müəllifi, yazıçı Yunus Oğuz, Azərbaycan Ədəbiyyat Fondunun Baş direktoru, Avrasiya Millətlər Assambleyası Ədəbiyyat Şurasının həmsədri Varis Yolçuyev, kitabxananın əməkdaşı Lamiə Sarıyeva, Vətən müharibəsi iştirakçıları – mayor Yusif Hümbətov, baş leytenant Pətərək Fərzəliyev, qazi Vüsal Səttarov döyüş xatirələrini tədbir iştirakçıları ilə bölüşərək, yüzlərlə poladların, mübarizlərin, xudayarların qisasının döyüş meydanında alındığını, şəhidlərimizin qanlarının yerdə qalmadığını böyük qürur hissi ilə dilə gətiriblər. Gülniyar xanımın zəhmətini yüksək dəyərləndiriblər.

Şəhid ailələrinin üzvləri oğullarının qəhrəmanlığı ilə qürur duyduqlarını, onların həyat hekayələrinin qələmə alınmasından razı qaldıqlarını bildiriblər. Gülniyar Qurbanqızı bir elin qəhrəman oğullarından bəhs edən bu kitabların yazılmasına kömək etmiş şəhid ailələrinə dərin hörmət və ehtiramını bildirərək təqdimatın təşkilatçılarına minnətdarlığını çatdırıb.

# 21 yaşlı şəhidin 25-ci ad günü



**Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Qəhrəmanlarımızı tanıyaq" layihəsi çərçivəsində şəhid Famil Əlizadənin 25 illik yubileyinə həsr olunmuş "Əbədiləşən ömürlər" adlı tarix dərsi keçirilib.**

Nəriman Nərimanov adına 2 nömrəli Masallı şəhər tam orta məktəbin müəllim və şagirdlərinin qatıldığı tədbirdə muzeyin direktoru Əntiqə Tağıyeva 30 illik mübarizəyə söykənən Böyük Qələbənin özəllikləri barədə ətraflı məlumat verib.

Muzeyin əməkdaşı Sevinc Əliyeva isə Vətən müharibəsinin qəhrəman şəhidi Famil Əlizadənin həyat və döyüş yolu haqqında geniş məruzə edib. Həmçinin şagirdlərlə şəhidlər barəsində sual-cavab aparılıb. Tədbirdən sonra Famil Əlizadənin məzarı ziyarət edilib, üzərinə gül dəstələri qoyulub.

...Famil Əlizadə Masallının Ərkivan qəsəbəsində dünyaya gəlib. 2016-cı ildə orta məktəbi bitirib, təhsilini 2 saylı Bakı Peşə Liseyində davam etdirib. Əsgərliyi cəbhə bölgəsinə düşən Famil Vətəni göz bəbəyi kimi qoruyub, Qarabağımızın azadlığı uğrunda düşmənlə döyüşə həmişə hazır olub.



Buna görə də İkinci Qarabağ müharibəsi başlananda könüllü olaraq döyüşlərə atılıb. Vətən sevdalısı ilk gündən yağılara qan qusdurub. Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinin alınmasında, sözün əsl mənasında, tarix yazıb. 2020-ci il oktyabrın 21-də onun Vətənlə bir döyünən ürəyi düşmən gülləsinə tuş gəlib. Məzarı doğma Ərkivan qəsəbəsində özünə əbədi məkan tapıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Cəsur döyüşçü", "Vətən uğrunda" və digər medallara layiq görülmüş Familin vaxtilə yaşadığı küçə indi onun adını daşıyır.

***Səhifəni hazırladı:***
***Əli ƏLİYEV***
***XQ***

## “AQRARKREDİT” QSC bank olmayan kredit təşkilatının 2023-cü il dekabrın 31-nə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| | Qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 119,230,967 | 126,619,128 |
| Qiymətli kağızlara olan investisiya | 11 | 22,442,796 | 22,669,491 |
| Banklarda yerləşdirilmiş müddətli depozitlər | 12 | 35,115,572 | 35,520,754 |
| Müştərilərə verilmiş kreditlər | 13 | 157,320,305 | 114,329,939 |
| Satış üçün saxlanılan uzunmüddətli aktivlər | 16 | 493,294 | 553,580 |
| Azərbaycan Beynəlxalq Bankından alınmış aktivlər | 17 | 10,824,592,725 | 11,593,975,369 |
| Digər banklardan alınmış aktivlər | 18 | 103,879,167 | 103,879,167 |
| Əmlak və avadanlıqlar | 14 | 964,029 | 995,211 |
| Qeyri-maddi aktivlər | 15 | 41,593 | 56,591 |
| Digər aktivlər | 19 | 82,818,374 | 9,597,326 |
| **Cəmi aktivlər** | | **11,346,898,822** | **12,008,196,556** |
| **Öhdəliklər və kapital** | | | |
| **Öhdəliklər** | | | |
| Maliyyə institutlarına ödəniləcək vəsaitlər | 21 | 20,258,413 | 19,728,066 |
| Buraxılmış borc qiymətli kağızları | 20 | 11,252,128,041 | 11,914,275,437 |
| Müştəri hesabları | 22 | 5,755,493 | 9,509,175 |
| Təxirə salınmış vergi öhdəliyi | 10 | 157,208 | 107,292 |
| Digər öhdəliklər | 23 | 16,427,582 | 15,589,483 |
| **Cəmi öhdəliklər** | | **11,294,726,737** | **11,959,209,453** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 24 | 45,338,982 | 45,338,982 |
| Bölüşdürülməmiş mənfəət | | 6,833,103 | 3,648,121 |
| **Cəmi kapital** | | **52,172,085** | **48,987,103** |
| **Cəmi öhdəliklər və kapital** | | **11,346,898,822** | **12,008,196,556** |

**“AQRARKREDİT” QSC BANK OLMAYAN KREDİT TƏŞKİLATI**
**KONSOLİDƏ EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəlirləri | 4 | 19,174,763 | 17,093,928 |
| Faiz xərcləri | 4 | (140,332) | (244,323) |
| **Faiz gətirən aktivlər və digər aktivlər üzrə ehtimal edilən zərər üçün ehtiyatlar təmin olunmamışdan əvvəl xalis faiz gəliri** | | **19,034,431** | **16,849,605** |
| Faiz gətirən aktivlər üzrə ehtimal edilən zərər üçün (ehtiyatlar)/ehtiyatların bərpası | | (6,175,863) | 5,681,351 |
| **Xalis faiz gəliri** | | **12,858,568** | **22,530,956** |
| Haqq və komissiya gəlirləri | 6 | 173,147 | 160,065 |
| Haqq və komissiya xərcləri | 6 | (894,525) | (929,463) |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis (zərər)/gəlir | 5 | 149,072 | (2,228,163) |
| Digər gəlirlər | 7 | 503,671 | 1,454,830 |
| Digər xərclər | 7 | (2,638,521) | (13,197,077) |
| **Əməliyyat gəlirləri** | | **10,151,412** | **7,791,148** |
| Əməliyyat xərcləri | 8 | (5,681,046) | (6,328,955) |
| **Mənfəət vergisindən əvvəl gəlir** | | **4,470,366** | **1,462,193** |
| Mənfəət vergisi xərci | 9 | (1,065,384) | (387,385) |
| **İl üzrə xalis mənfəət** | | **3,404,982** | **1,074,808** |

**“AQRARKREDİT” QSC BANK OLMAYAN KREDİT TƏŞKİLATI**
**KONSOLİDƏ EDİLMİŞ SƏHMDAR KAPİTALINDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2022-ci il** | **22,669,491** | **2,771,313** | **25,440,804** |
| Səhmlərin emissiyası | 22,669,491 | - | 22,669,491 |
| Elan edilmiş dividendlər | - | (198,000) | (198,000) |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,074,808 | 1,074,808 |
| **31 dekabr 2022-ci il** | **45,338,982** | **3,648,121** | **48,987,103** |
| Səhmlərin emissiyası | - | - | - |
| Elan edilmiş dividendlər | - | (220,000) | (220,000) |
| İl üzrə cəmi məcmu gəlir | - | 3,404,982 | 3,404,982 |
| **31 dekabr 2023-cü il** | **45,338,982** | **6,833,103** | **52,172,085** |

**“AQRARKREDİT” QSC BANK OLMAYAN KREDİT TƏŞKİLATI**
**KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitinin hərəkəti** | | | |
| Mənfəət vergisindən əvvəl gəlir | | 4,470,366 | 1,462,193 |
| *Düzəlişlər:* | | | |
| Faiz gətirən aktivlər üzrə ehtimal edilən zərər üçün ehtiyatlar | 12 | 6,175,863 | (5,681,351) |
| Digər aktivlər üzrə ehtimal edilən zərər üçün (ehtiyatların bərpası)/ehtiyatlar | | 11,731 | (161,740) |
| Köhnəlmə və amortizasiya | 8,14 | 275,177 | 282,531 |
| Xarici valyuta yenidən qiymətləndirilməsi əməliyyatları üzrə zərər | 5 | (149,072) | 2,228,163 |
| İnvestisiya qoyuluşlarının silinməsindən yaranan zərər | | - | - |
| Əmlak və avadanlığın silinməsindən yaranan zərər | | - | - |
| Yığılmış faizlərdə dəyişikliklər, xalis | | (2,737,549) | (2,097,919) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətinə (yönələn)/daxil olan pul vəsaitləri** | | **8,046,516** | **(3,968,123)** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | | |
| ***Əməliyyat aktivlərində (artma)/azalma:*** | | | |
| Banklarda yerləşdirilmiş müddətli depozitlər | 11 | 401,528 | (12,377,350) |
| Müştərilərə verilmiş kreditlər | 12 | (47,213,799) | (22,594,610) |
| Satış üçün saxlanılan uzunmüddətli aktivlər | 15 | 48,555 | 536,117 |
| Digər aktivlər | 18 | 34,163,272 | 22,380,129 |
| ***Əməliyyat öhdəliklərində artma/(azalma):*** | | | |
| Müştəri hesabları | 21 | (3,753,682) | 2,020,173 |
| Digər öhdəliklər | 22 | 838,099 | 6,355,404 |
| Ödənilmiş mənfəət vergisi | | | |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(7,469,511)** | **(7,648,260)** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitinin hərəkəti** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | 13, 14 | (227,328) | (296,545) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin silinməsindən əldə edilən zərər | | (1,669) | 59,318 |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(228,997)** | **(237,227)** |

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitinin hərəkəti** | | | |
| Adi səhmlər üzrə ödənilmiş dividendlər | | (220,000) | (198,000) |
| Maliyyə Qruplarına ödəniləcək vəsaitlərdə artım | | 530,347 | (3,043,329) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olmuş xalis pul vəsaitləri** | | **310,347** | **(3,241,329)** |
| Məzənnə fərqlərinin pul və pul vəsaitlərinə təsiri | | - | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma** | | **(7,388,161)** | **(11,126,816)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 10 | **126,619,128** | **137,745,944** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 10 | **119,230,967** | **126,619,128** |

**Nobelçi türk qonağımızdır**

# Əziz Səncər: Azərbaycanın mənim könlümdə ayrı bir yeri var



**Nobel mükafatı laureatı, dünya şöhrətli alim Əziz Səncər Azərbaycanda səfərdədir. Azərbaycan Milli Elmlər Akademiyasının təşkil etdiyi səfərdə görkəmli alim bir sıra görüşlər keçirəcək, önəmli mövzuda mühazirə oxuyacaq.**

Hörmətli qonaq səfərinin ilk günündə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və Türk Şəhidliyi abidəsini ziyarət edib. Dünya şöhrətli alim AMEA-nın Ümumi yığıncağının xüsusi iclasında “Türk dünyası elm siyasəti: reallıqlar və çağırışlar” mövzusunda məruzə ilə çıxış edəcək, ona AMEA-nın Fəxri üzvü diplomu və vəsiqəsi təqdim olunacaq. Nobel mükafatçısı AMEA-nın Naxçıvan Bölməsini, elmi müəssisə və təşkilatları, eləcə də respublikanın ali təhsil müəssisələrini ziyarət edəcək.

XQ-nin əməkdaşı Əziz Səncərlə görüşərək ondan qısa müsahibə alıb.

**– Əziz bəy, Azərbaycana xoş gəlmisiniz. Budəfəki gəlişinizdə Azərbaycanı necə gördünüz?**

– Çox sağ olun. Azərbaycanda elm insanları ilə görüşdüm. Çox doğma olan gənc, istedadlı elm insanları gördüm və bu, məni çox məmnun etdi.

**– AMEA-nın dəvətilə Azərbaycana gəlmisiniz...**

– Bəli, bu, mənim üçün böyük fəxrdir. Türkiyə və ABŞ Elmlər Akademiyasına illər öncə seçilmişdim. Amma Azərbaycanın mənim könlümdə ayrı bir yeri var və buna görə də, AMEA-nın fəxri üzvü seçilməyim mənim üçün qürurvericidir. Məni türk qardaşları kimi tanıdıqlarına görə çox təşəkkür edirəm.

**– Əziz bəy, azərbaycanlı gənclərə nə arzulayardınız?**

– Azərbaycana, ümumiyyətlə, türk dünyasına elm lazımdır. Elmdə irəliləyiş dövlətlərin inkişafı və güclü olması baxımından çox önəmlidir. Bu baxımdan Azərbaycan gənclərinə, dövlətin müvafiq orqanlarına tövsiyəm budur ki, elmi dəstəkləsinlər, zəruri sərmayələr yatırsınlar.

**– AMEA-da oldunuz və akademiya sizi alqışladı.**

– Akademiyanın prezidenti, akademik İsa Həbibbəyliyə təşəkkürümü bildirirəm. Mənə çox böyük diqqət və saygı göstərdilər. Bir neçə gündən sonra AMEA-nın üzvləri ilə görüşəcəyəm və müzakirələr aparacağıq. Bir daha AMEA rəhbərliyinə məni Azərbaycana dəvət etdiyinə və göstərdikləri diqqətə görə minnətdarlığımı bildirirəm.

***Müsahibəni apardı:***
***Səbuhi MƏMMƏDOV***
***XQ***

# “Turanga” milli trenajordur

**İlk Azərbaycan brendi olan və İstanbul şəhərində “TEXNOFEST” festivalı çərçivəsində “ISIF’23: 8-ci İstanbul Beynəlxalq İxtiralar Sərgisi”ndə gümüş medal qazanan "Turanga" çoxfunksional idman trenajorunun yaradıcısı, Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Ramin Babayev trenajorla bağlı ən çox verilən sualları “Xalq qəzeti”nə müsahibəsində ətraflı cavablandırdı.**



**– Ramin müəllim, nə üçün "Turanga" çoxfunksional idman trenajoru?**

– Çünki, ilk növbədə, adından da göründüyü kimi, çoxfunksionaldır. Bu avadanlıq sağlam və fit bədən üçün 5 ən vacib idman hərəkətini özündə birləşdirir (turnikdə dartınma, oturub-qalxma, təkan hərəkətləri, paralel qollarda enib-qalxma kimi hərəkətlər). İkinci növbədə, “Turanga” çox kompaktdır, səssizdir və gözəl görünüşə malik olduğu üçün istənilən yerdə, yeni evlərdə, ofislərdə, mehmanxana otaqlarında və digər analoji şəraitdə yerləşdirmək mümkündür. Üçüncüsü, büdcəyə uyğun olduğu üçün hər kəsə əlçatandır. Daha bir özəlliyi onun unikal mexanizmindədir. Belə ki, onun mexanizmi sayəsində qurğunun istifadəçiyə verdiyi təkan hesabına normal vəziyyətdə çətinliklə icra olunan idman hərəkətlərini səlist və rahat şəkildə yerinə yetirmək mümkündür.




**– "Turanga" çoxfunksional idman trenajorunun digərlərindən fərqi nədir?**

– Ənənəvi trenajorlardan fərqli olaraq bu trenajorda çəki daşlarına ehtiyac yoxdur, çəkisi 3-4 dəfə onlardan yüngüldür, innovativ və yığcamdır, yığılıb-açıla bilir, daşınması isə çox asandır.

**– Trenajorla kimlər məşğul ola bilər?**

– Trenajordan peşəkar idmançılarla yanaşı, idmana yeni başlayan, artıq çəkidən əziyyət çəkən, passiv və ya oturaq həyat tərzi yaşayan, fiziki aktivliyi qorumaq istəyən, eləcə də reabilitasiya keçən uşaqlar və böyüklər istifadə edə bilər. Belə ki, trenajorun tənzimləyicisi hesabına idman hərəkətlərinin çətinlik dərəcəsini artırmaq və ya azaltmaq mümkündür. Trenajor 125 kq-a qədər çəkiyə davamlıdır.

**– Trenajorla artıq çəkiləri atmaq mümkündürmü?**

– Əlbəttə mümkündür. Təcrübəmizdə 18 ay ərzində ev şəraitində trenajorla məşq nəticəsində 140 kq-dan 73 kq-a qədər arıqlama əldə etmişik. Nəinki arıqlamaq, həmçinin fit bədən quruluşuna sahib olursunuz. Belə ki, trenajorda əzələlərin çoxsaylı hərəkəti sayəsində piy qatı əriyir, əzələ qatı inkişaf edir, çəki itkisi, sağlam və ideal bədən quruluşu əldə olunur.

**– Ramin müəllim, bugünədək trenajorla bağlı hansı işlər görülmüşdür və növbəti addımlar nədir?**

– Trenajorun patentləşdirilməsi üçün Əqli Mülkiyyət Agentliyinə müraciət olunmuş və müvafiq patent əldə edilmişdir. Bundan əlavə, ötən il Əqli Mülkiyyət Agentliyinin tabeliyindəki Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi trenajorun İstanbul şəhərində “TEXNOFEST” festivalı çərçivəsində “ISIF’23: 8-ci İstanbul Beynəlxalq İxtiralar Sərgisi”ndə nümayişini təmin etmiş və trenajor sərgi çərçivəsində keçirilən yarışmada gümüş medal qazanmışdır.

Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin böyük dəstəyi ilə bu trenajorun kommersiyalaşdırılması istiqamətində bir sıra işlər görülmüşdür. İlkin bazar araşdırması, o cümlədən sorğular aparılmış, potensial istehsalçılarla əməkdaşlıq istiqamətində görüşlər keçirilmiş, potensial alıcı qrupları müəyyənləşdirilmişdir. Trenajorun uğurla kommersiyalaşdırılması istiqamətində işlər hazırda da aktiv şəkildə davam etdirilir.

Məqsədimiz Azərbaycan brendi olaraq dünyada tanınmaq, idmanı insanlara daha da yaxın, əlçatan etmək, insanların sağlam qalmalarına, sürətli reabilitasiyasına dəstək olmaq, əqli mülkiyyət üzərindən əlavə gəlirlər yaratmaqdır.

***A.AZADOVA***
***XQ***


Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

aşağıda qeyd olunan vakant vəzifələri tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

Riyaziyyat fakültəsinin dekanı.

Müsabiqədə iştirak etmək istəyənlərin sənədləri “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın tələblərinə uyğun olaraq bu elan qəzetdə və www.adpu.edu.az saytında dərc edilən gündən bir ay müddətində saat 9.00-dan 17.00-a qədər rektorun adına yazılan ərizə ilə birlikdə ADPU-nun insan resursları şöbəsində qəbul edilir.

Əlaqə telefonu- (012) 498-08-16
E-poçt: insan.resurslari@adpu.edu.az
www.adpu.edu.az
Ünvan- AZ-1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 114 (30518) 1 iyun 2024-cü il, şənbə

İDMAN

## Daha bir boksçumuz "Paris-2024" qazandı

**Boks üzrə Azərbaycan komandası Paris Yay Olimpiya Oyunlarına daha 1 lisenziya əldə edib.**




Növbəti vəsiqəni millimizə Malik Həsənov (63,5 kq) qazandırıb. Dəri əlcək ustası Tailandın paytaxtı Banqkokda keçirilən II Dünya Olimpiya Təsnifat Turnirində yarımfinala yüksəlməklə Olimpiadaya lisenziyanı da rəsmiləşdirib.

Bu, boks üzrə Azərbaycan millisinin Paris Oyunlarına qazandığı 4-cü vəsiqə olub. Qeyd edək ki, bundan əvvəl Nicat Hüseynov (51 kq), Murad Allahverdiyev (80 kq) və Məhəmməd Abdullayev (+92 kq) Paris Olimpiadasında iştirak hüququ qazanıblar.

## "Azəryol" Azərbaycan Kubokunun qalibidir

**Kişi həndbolçular arasında Azərbaycan Kubokunun qalibi müəyyənləşib.**



"ABU Arena"da keçirilən həlledici mərhələdə "Azəryol" və "Bakı" komandaları görüşüblər. Qarşılaşma "Azəryol"un 35:31 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, qadınlar arasında ölkə kubokunu isə Mingəçevirin "Kür" komandası qazanıb.

## Avropa çempionatında mükafatlar

**Bakıda qrappling üzrə Avropa çempionatı keçirilib.**



Bakı İdman Sarayında təşkil edilən yarışda Gi versiyasında (kimono ilə) 17 yaşadək oğlanlar arasında Əbülfəz Məmmədov (39-42 kq) və Davud Babayev (46 kq) gümüş medal qazanıblar. Rəvan Ağayev (39-42 kq), Vüqar Abbasov (46 kq), Nihad Məmmədzadə (50 kq) isə bürünc mükafata layiq görülüblər. Qızların yarışında Aysu Əliyeva (43 kq) 2-ci, Leyla Nurullayeva (46 kq) 3-cü yerləri tutublar.

Gi versiyasında 20 yaşadək oğlanlar arasında Emil Verdiyev (62 kq), Elman Əsgərov (71 kq) gümüş medala yiyələniblər. Nərmin İsgəndərli (49 kq), Zeynəb Əlirzayeva (49 kq) isə müvafiq olaraq, 2-ci və 3-cü pillələrdə qərarlaşıblar.

No-gi (kimonosuz) növündə U-17 və U-20 Azərbaycan millisi komanda hesabında 3-cü yeri tutub.

***L.QURBANOVA***
***XQ***

1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günü

# Nağıllardan uşaq dünyasına körpü

**Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının əsasını 1931-ci ildə görkəmli aktyor Molla Ağa Bəbirli qoyub. İlk tamaşa 1932-ci ildə ("Sirk") oynanılıb. 92 yaşlı uşaq teatrı ölkənin ən fəal yaradıcı kollektivlərindəndir. Sənət ocağının yeni təyin olunmuş baş rejissoru Anar Məmmədovla məşq zamanı söhbətləşdik.**



***– Anar müəllim, baş rejissor kimi ilk işiniz uğurlu olsun.***

– Sevinc Elsevərin "Lokomativ və qatarlar" pyesinin məşqlərinə yeni başlamışıq. Oxu məşqini bitirib səhnəyə bu gün çıxmışıq. Gördüyünüz kimi, dekorasiyalar hələ tamamlanmayıb. Yəni, indi gördüyünüzlə sabah görəcəyiniz arasında çox fərq olacaq.

***– Sənətdə ilk addımlarınızı məhz bu teatrda atmısınız. Sizi uşaq teatrına bağlayan nədir?***

– On üç ildir Kukla Teatrında quruluşçu rejissor işləyirəm. Ali təhsilimi başa vurub hərbi xidmətə getdim, qayıdandan sonra bir neçə teatrdan dəvət aldım. Açığı, məni Kukla Teatrı daha çox cəlb elədi. Burada nəsə sehirli bir aləm var. İnsan, sanki böyük olduğunu unudur, uşaqlaşır. Hər dəfə yeni tamaşanı quranda uşaqlığına qayıdırsan, o aləmdə saflaşırsan, yenilənirsən. Nə gizlədim, nağıllar dünyası daha maraqlıdır. Bu teatrın havasında uşaq saflığı var. Kollektiv də uşaq kimi böyüklərdən ibarətdir: təmiz, sadəlövh. Digər teatrlarda da tamaşalar hazırlayıram, amma Kukla Teatrı başqadır, buranı çox sevirəm. İnanın, evdə də buranı düşünürəm, beynimdə yeni ideyalar qurulur, formalar axtarılır. Ona görə burada maraqlıdır. Düşünürəm ki, balacaları yeni tamaşalarla hələ çox sevindirəcəyik.

***– Həyatın gerçəklərini kuklaların nağıl dili ilə uşaqlara anlatmaq, onları buna inandırmaq çətin deyilmi?***

– Şübhəsiz, asan deyil. XXI əsrdə yaşayırıq, internet əsridir. Uşaqların əlində telefon, planşet və onların vasitəsilə dünya gözləri önündə açılır. Çalışırıq ki, onların uşaq dünyalarını saxlayaq, tamaşada özlərini tapsınlar. İnternetdən fərqli olaraq, teatrda azyaşlı tamaşaçı kukla ilə canlı ünsiyyətdə olur, nağılın iştirakçısına çevrilir. Çalışırıq ki, tamaşalar interaktiv olsun, uşaqlar özlərini səhnədə hiss etsinlər. Uşaq rəngarəngliyi sevir. Səhnə nə qədər bəzəkli olsa, o qədər cəzbedicidir. Bu həqiqətlərdən çıxış edərək, istəyirik tamaşalarımız həm uşaqların, həm də böyüklərin zövqünü oxşasın. Axı uşaqları teatra valideynləri, yaxud müəllimləri gətirirlər, onların da marağını nəzərə almalıyıq. Uşaq teatrının məsuliyyəti daha böyükdür. Çünki biz böyük səhnələr üçün potensial tamaşaçı yetişdiririk. Bu mənada insanın qədəm qoyduğu ilk mədəniyyət məkanı Kukla Teatrıdır. O, insana teatrı sevdirə də bilər, qaçırda da.

***– Uşaqlar üçün tamaşa hazırlamaq asandır, yoxsa çətin?***

– Kukla Teatrı fəqrli səhnə olduğuna görə daha çətindir. Böyük səhnədə rejissorun mizanını aktyor ifa edir. O, canlıdır, kukla isə cansızdır, imkanları geniş olduğu qədər də məhduddur. Çünki işlək mexanizmləri görünməli deyil. O mexanizmləri idarə edən aktyorun əli, üzü görünməməlidir. Yəni, texniki çətinlik yaradıcılığı buxovlayır. Amma fantaziya baxımından Kukla Teatrı daha rahatdır. Bizim aktyorlar başqa teatrlarda da rahatlıqla rol oynaya bilirlər. Amma o teatrların aktyorları Kukla Teatrında işləmək üçün uzun müddət təcrübə keçməlidirlər. Xalq artisti Yaşar Nuri bizim teatrda "O olmasın, bu olsun"da Məşədi İbadı oynayanda hər məşqdən sonra heyrət içində soruşurdu ki, siz bunu necə edirsiniz?

***– Ötən əsrin 90-cı illərindən etibarən Azərbaycan teatrı çətin dövrünü yaşayır. Hələ də o eniş zolağından çıxa bilməyib. Bəs Kukla Teatrı hansı durumdadır?***

– Biz o vəziyyətdən çıxmışıq. Doxsanıncı illərdə qastrollara gedəndə bizi xarici festivalların münsiflər heyəti ya seçirdi, ya da seçmirdi. Amma bu gün hansı festivalda iştirak edib-etməyəcəyimizi özümüz müəyyənləşdiririk. Artıq bizi müsabiqəsiz dəvət edirlər. Hələ əliboş qayıtdığımız festival olmayıb, hamısında hansısa mükafatı almışıq.

***– Bəs indi kollektiv hansı problemlərlə üzləşir?***

– Çətinliklər əsər seçimindən başlayır. Sonra rejissorla rəssamın birgə işi, müxtəlif fikirli yaradıcı insanların ortaq məxrəcə gəlməsi asan məsələ deyil. Ardınca da düşürük səhnə məşqinə. Həmin prosesdə də fikir ayrılığı, mübahisələr olur. Bunlar hamısı keçilməli olan çətin prosesdir. Kuklanın bir neçə növü var, hamısı teatrımızda illərdir işlənib hazırlanıb və istifadə olunur. Bircə bu baxımdan problemimiz yoxdur.

***– Kadr çatışmazlığı ilə rastlaşırsınız?***

– Bu, yaralı yerimizdir. Mədəniyyət və İncəsənət Universitetində Kukla Teatrı üçün aktyor hazırlanmır. Bura gələn aktyoru özümüz öyrədirik. Bu isə müəyyən vaxt aparır. Elə olur ki, aktyor bütün prosesi tam öyrənəndən sonra buradan gedir. Biz də eyni prosesi başqası ilə yenidən keçməli oluruq. Universitetdə kukla aktyoru ixtisası üzrə fakültə olsaydı, heç olmasa, məzun əlifbasını öyrənib gələrdi. Eyni çətinlik rəssamla da yaşanır.

***– Uzun müddətdir ki, repertuarınızda eyni tamaşaları görürük –"Qırmızıpapaq", "Cırtdan", "Pişiyin evi", "Məlikməmməd" və sair.***

– Bunlar klassik əsərlərdir. Hər zaman repertuardadır, amma fərqli quruluşlarda oynanılır. İndi hazırladığımız tamaşa yeni əsərdir. Repertuarımızda dünya klassikləri də var. Yəni, o qədər də kasad deyilik...

***– Paytaxtda balacaların yeganə teatrı olan Kukla Teatrı 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə və məktəblilərin yay tətilinə necə hazırlaşıb?***

– Həmişəki kimi həmin günlərdə ardıcıl tamaşalarımız olacaq. Yetər ki, uşaqların teatra, nağıla, kitaba meyilləri artsın.

***Söhbətləşdi:***
***Ramilə QURBANLI***
***XQ***

**Güllü beşiyində şirin-şirin yuxuya gedən süd qoxulu körpə, bəlkə də, Yer üzünün ən məsum və ən günahsız bəndəsidir. Onun bir qığıltısına, şirin təbəssümünə dünyanın bütün naz-nemətini qurban verməyə dəyər.**

# Məsum körpə gülüşünün işığı



Körpə təbəssümü ən qaranlıq otağa, ən zülmət daxmaya da işıq və hərarət gətirir. Uşaq hər bir evin, ailənin bəzəyi, sevinc və səadət mənbəyidir. Dünyanın ən bahalı daş-qaşı, ən qiymətli sərvəti də bir körpənin göz yaşı önündə duruş gətirə bilməz.

"Uşaqlı ev bazar, uşaqsız ev məzardır," – deyiblər. Yaxşı nə varsa, hamısı onların üzünədir. Məşhur fransız yazıçısı Viktor Hüqo əbəs yerə demirdi: "Dünyada körpə qığıltısından böyük himn yoxdur". Körpə təmizliyinə, uşaq müqəddəsliyinə söz çatmaz...

...Böyük Vətən müharibəsi illərində faşist zabiti əsir tutulmuş uşaqlara əmr edir ki, sıraya düzülsünlər, heç kəs sıranı pozmadan və hamı eyni qaydada üzüqoylu torpağa uzansın. Bir neçə saniyədən sonra avtomat daraqları körpə kürəkləri deşik-deşik edəcək. Zabit birdən görür ki, lap ayağının ucunda uzanmış uşaq onun şinelinin ətəyini dartışdırıb deyir:

– Əmi, bax gör, mən düz uzanmışam?

Uşaq təmizliyinə ölümsaçan güllələrin gücü çatmaz. Tez-tez "Uşaqlar bizim gələcəyimizdir" söyləyir, bağrımıza basıb "şirinim, şəkərim, noğulum" deyirik. Amma onlar üçün nə edə bilirik? Məsələn, onlar üçün olan uşaq-idman meydançalarının yerində hündürmərtəbəli evlər, marketlər tikilməsinin qarşısını ala bilirikmi? Vaxtında sağlamlıqlarının qayğısına qalır, həkim müayinəsinə aparır, peyvənd etdiririkmi?

Övlad qayğısına qalmaq təkcə onları təmiz və səliqəli geyindirmək, parka və bulvara gəzintiyə aparmaq, istədiyini almaq deyil. Təəssüf ki, valideynlərin çoxu uşaqların istəkləri qarşısında yumşalır, əylənmələri üçün "ağıllı" telefon və planşetlər verir, onlara paketdə satılan süni qidalar, "fastfud"lar, ayaqüstü hazırlanan dönər, hamburger kimi yeməklər alır və bununla övladını məmnun etdiyi üçün özünü xoşbəxt hesab edir. Əslində isə, həmin qidalarla uşağın gələcəyini təhlükə altına atırlar...

Bu gün Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür – sabahımız, gələcəyimiz dediyimiz uşaqların bayramıdır. Nazim Hikmət demiş, gəlin dünyanı uşaqlara verək – heç olmasa, bir günlüyə, bir neçə saatlığa...

Əgər dünyanı verə bilmiriksə, onda ürəyimizi verməyə nə söz?

***Süleyman QARADAĞLI***

Hava

## Abşeronda yağmursuz və küləkli, bölgələrdə yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 1-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, günün ikinci yarısından arabir güclənəcək.**



Gecə 15-20, gündüz 29-34° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 30-35°, dağlarda gecə 11-16°, gündüz 16-21° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq



## 40 yaşdan yuxarı – başda təzyiqin buxarı

**Ömür boyu təzyiq problemindən əziyyət çəkməyən insanda da bəlli yaşdan sonra təzyiq yüksəlməsi başlaya bilər. Çox maraqlıdır ki, kardioloqlar, nevropatoloqlar yox, ginekologiya ilə məşğul olanlar bu məsələnin başqa bir səbəbini tapıblar. Məşhur ginekoloq, tibb elmləri namizədi Kamil Bəxtiyarov 40 yaşdan sonra yaranan təzyiq probleminin səbəbini açıqlayıb.**

Həkim deyib ki, 40 yaşdan sonra orqanizmdə aktiv hormonal dəyişikliklər getdiyindən progesteron və estrogenlər azalır. Bu da həm fizioloji, həm psixoloji dəyişikliklər yaradır, təzyiqin yüksəlməsinə səbəb olur.

Təzyiq vaxtaşırı, qəflətən yüksələ bilir. Tonometrdə 130-dan yuxarı rəqəmlər görünür və ya daimi 140/90-da qala bilir. Bu zaman hormonal qasırğadan əlavə, damarların vəziyyəti də pozulur.

Həkim deyib: "Artıq çəki, depressiya, şəkər, ateroskleroz da bu yaşdan başlayır. Vaxtaşırı yüksək təzyiq sizi narahat etməyə başlayırsa, kardioloq, endokrinoloqun qəbulunda olun. Ümumi qan analizi, dəmir, ferritin, qanda şəkər, xolesterin, lipid, damarların dopleri, TSH, T3 T4 analizlərini verin və USM müayinəsindən keçin".

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4040
SİFARİŞ 1183
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00